
# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

04 noyabr
2026-cı il,
çərşənbə
№ 202 (7269)
Qiyməti
60 qəpik

Milli azadlıqdan
şirin nemət yoxdur!

*A.S (Ante Skriptum)*

***İlham Əliyev:***
***"Bir çox hallarda biz gördüyümüz işləri reklam etmədən, özümüzü göstərmədən dövlətimiz və xalqımız üçün lazım olan addımları atırıq"***

# Azərbaycançılıq ideologiyası - milli birliyimizin və dövlətçilik iradəmizin atributu




## Zəfər ayının 4-cü günü
## 4 noyabr 2020-ci il




# İlham Əliyev: Azərbaycanın uğurlu və sabit inkişafının təməlində dayanan əsas səbəblərdən biri cəmiyyətimizdəki ahəngdarlıqdır

Bax səh. 2

# 8 Noyabr Zəfər Günü münasibəti ilə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təbrik məktubları ünvanlanıb

Bax səh. 3

## Azərbaycan-Çin Sənaye Parkı yaradılır

İqtisadiyyat naziri Mikayıl Cabbarovla "CSCEC International" şirkətinin İdarə Heyətinin sədri Qao Bo arasında keçirilən görüşdə Azərbaycan-Çin iqtisadi əməkdaşlığı müzakirə olunub. Çin şirkətlərinin ölkəmizdə infrastruktur, şəhərsalma, energetika, sənaye və digər sahələrdə fəaliyyətinin artırılması perspektivləri nəzərdən keçirilib. Tərəflər Azərbaycan-Çin Sənaye Parkının yaradılması və bu istiqamətdə "CSCEC International" şirkəti ilə potensial əməkdaşlıq imkanlarını dəyərləndiriblər.

Qeyd edək ki, "CSCEC International" bina və infrastruktur layihələrini həyata keçirən beynəlxalq şirkətdir. Şirkət daşınmaz əmlak, investisiya, layihələndirmə və mühəndislik sahələrində fəaliyyət göstərir.

Azərbaycanda həyata keçirilən sənayeləşmə siyasəti çərçivəsində görülən işlər, qeyri-neft sektorunun inkişafında sənaye zonalarının əhəmiyyəti, sənaye parklarında sahibkarlar üçün yaradılmış əlverişli şərait, rezidentlər üçün tətbiq edilən vergi-gömrük güzəştləri, digər stimullaşdırıcı mexanizmlər Çin sənaye ailəsinin marağına səbəb olmaqdadır. Çin şirkətləri bu münbit iqtisadi şəraiti nəzərə alaraq son illərdə Azərbaycanda birgə layihələrdə geniş təmsil olunmaqdadır. Azərbaycanda 450-dən çox Çin şirkəti və korporasiyası müxtəlif iqtisadi sahələrdə təmsil olunur ki, həmin şirkətlərin təxminən 40 faizi sənaye və "ağıllı texnologiyalar" sektorunda fəaliyyət göstərir.

Azərbaycanın ən nəhəng sənaye zonalarından biri olan Ələt Azad İqtisadi Zonasında çinli investorlar xeyli müddətdir ki, sənaye şəbəkəsinə qoşulub. Çinin yüksək texnologiyalı şirkətlərindən olan "Sichuan Sunsync Photovoltaic Technology Co., Ltd." burada günəş panelləri istehsalı müəssisəsi yaradıb. Müəssisələrdə illik 3 qiqavat (QVt) istehsal gücünə malik günəş panelləri...

Bax səh. 4



## "Gələcək nəsillərə güclü dövləti miras qoymaq hamımızın borcudur"

## Milli Məclis 8 Noyabr - Zəfər Günü ilə əlaqədar bəyanat qəbul edib

Bax səh. 3

## Qarşıdakı mərhələdə əsas hədəflər...

Bax səh. 3

## İqtisadi-ticari əməkdaşlığı gücləndirmək üçün yeni gündəlik

Bax səh. 4

## Avropada qaz ehtiyatları kritik həddə düşüb

Bax səh. 5

## Avropa ilə Asiya arasında rəqəmsal dəhliz

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Türk Dövlətləri Təşkilatı (TDT) ölkələrini Qazaxıstan və Azərbaycan arasında işə salınmış Transsxəzər Fiber-Optik Kabel Xəttinin imkanlarından istifadə etməyə çağırıb. Tokayev əmin olduğunu bildirib ki, Türk dövlətləri bu unikal layihənin imkanlarından yararlana biləcəklər. Eyni zamanda, fiber-optik əməkdaşlıq TDT üzvləri arasında rəqəmsal inteqrasiyanı möhkəmləndirməklə, Kibertəhlükəsizlik Şurasının, eləcə də rəqəmsal monitorinq və innovasiya mərkəzlərinin yaradılması üzrə təşəbbüslərin reallaşdırılmasına da töhfə verə bilər.

Xatırladaq ki, Trans-Xəzər Fiber-Optik Kabel Xəttinin onlayn formatda rəsmi açılışı ötən ay oktyabrın 15-də Bakıda keçirilən AQEM-in 7-ci Zirvə Görüşü çərçivəsində baş tutub. Prezident İlham Əliyev və Kasım-Jomart Tokayevin iştirakı ilə keçirilən mərasimdə yeni marşrut rəqəmsallaşma dövrünə uyğun yenilikdir və tamamilə yeni əməkdaşlıq növü, rəqəmsal Orta Dəhliz kimi dəyərləndirilib. Prezident İlham Əliyev bildirib ki, bu dəhliz Azərbaycan ilə Mərkəzi Asiya, Cənubi Qafqaz və daha geniş coğrafiyanın ölkələrini birləşdirəcək.

Azərbaycan və Qazaxıstanın təməlini qoyduğu rəqəmsal Orta Dəhliz platforması həm də Türk dövlətlərinin ortaq maraqlarına xidmət edir. Belə ki, 2024-cü ilin iyul ayında Şuşada Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünün yekununda imzalanan Qarabağ Bəyannaməsinin mühüm prioritetlərindən biri qardaş ölkələr arasında kommunikasiya əlaqələrinin yeni modellərinin və müasir rəqəmsal inkişaf formatlarının yaradılmasıdır. Tərəflər arasında razılaşdırılmış "Rəqəmsal İpək Yolu" layihəsi çərçivəsində Trans-Xəzər Fiber-Optik kabel infrastrukturunun yaradılması və TDT-nin IT infrastrukturlarının...

Bax səh. 4



## Körfəzdə vəziyyət yenidən gərginləşir

Bax səh. 6



## Makron prezidentlik postundan necə yola salınır?

Bax səh. 6

# Zəfər ayının 4-cü günü
## 4 noyabr 2020-ci il

• Azərbaycan Ordusu Cəbrayıl rayonunun Mirək, Kavdar, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərini işğaldan azad edib. Bu barədə Prezident İlham Əliyev özünün tviter hesabında bildirib.

• Prezident İlham Əliyev İtaliyanın "La Repubblica" qəzetinə müsahibə verib.

• Döyüş əməliyyatları müxtəlif intensivliklə cəbhənin Tərtər, Ağdam, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Düşmənin xeyli sayda canlı qüvvəsi, iki T-72 tankı, üç D-30 topu, "Zastava M-55" zenit qurğusu, bir taktiki PUA-sı, üç hərbi yük maşını sıradan çıxarılıb.

• Ağdərə, Ağdam və Xocavənd istiqamətlərində hücuma cəhd edən düşmən şəxsi heyət və hərbi texnika baxımından itkilər verərək geri çəkilib. Ermənistan hərbi birləşmələrinin alay komandiri, tabor komandiri, snayper qrupu məhv edilib.

Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

• Ermənistan silahlı qüvvələrinin "M-55" zenit qurğusu dəqiq atəşlə vurulub.

• Ermənistan ərazisindən Zəngilan istiqamətindəki bölmələrimizə qarşı diversiya cəhdinin qarşısı alınıb.

• Ermənistan ordusunun təxribatları nəticəsində sentyabrın 27-dən noyabrın 4-dək 91 mülki şəxs həlak olub, 405 nəfər xəsarət alıb, 2 min 734 ev, 98 çoxmənzilli yaşayış binası və 500 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.




# Prezident İlham Əliyev Laosun Azərbaycanda yeni təyin olunmuş səfirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Laos Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Siphandon Oybuabuddini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı səfirin etimadnaməsini Laos Xalq Demokratik Respublikasının Prezidenti Thonqlun Sisulitin ötən ay ölkəmizə rəsmi səfərindən sonra təqdim etdiyini vurğuladı. Prezident İlham Əliyev səfərin çox uğurlu olduğunu dedi. Bildirdi ki, münasibətlərimizin dostluq xarakterini nümayiş etdirən bu səfər zamanı ikitərəfli əlaqələrimizin möhkəmləndirilməsi və beynəlxalq təşkilat çərçivəsində əməkdaşlıq ilə bağlı məsələlər müzakirə olundu.

Azərbaycan Prezidenti Bakıda keçirilmiş Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 7-ci Zirvə Görüşündə Laosun yüksək səviyyədə iştirak etdiyini dedi. Dövlətimizin başçısı AQEM-in beynəlxalq nüfuzunun artdığını vurğuladı, məhz ölkəmizin sədrliyi dövründə Laosun bu təşkilatın tamhüquqlu üzvü olmasının önəmini qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın AQEM-ə sədrliyinin daha 2 il uzadılması ilə bağlı qərarın bütün üzv dövlətlər, o cümlədən Laos tərəfindən dəstəklənməsinə görə minnətdarlığını bildirdi, bunu ölkəmizə olan hörmətin nümunəsi kimi qiymətləndirdi.

Dövlətimizin başçısı səfirə diplomatik fəaliyyətində uğurlar arzuladı.

Qəbula görə təşəkkür edən səfir Laos Prezidenti Thonqlun Sisulitin salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara və xoş sözlərə görə minnətdarlığını bildirdi, onun da salamlarını Laos dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Səfir, həmçinin qeyd etdi ki, Laos Prezidenti Azərbaycana rəsmi səfəri zamanı göstərilən qonaqpərvərliyə görə Prezident İlham Əliyevə və xalqımıza bir daha minnətdarlığını bildirir. O, Laos Prezidentinin ölkəsinə rəsmi səfərlə bağlı dəvətini dövlətimizin başçısına çatdırdı.

Səfir fəaliyyəti dövründə əməkdaşlığımızın inkişafı istiqamətində səylə çalışacağını dedi.

Söhbət zamanı əlaqələrimizin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Keniyanın yeni səfiri Prezident İlham Əliyevin qəbulunda...



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Keniya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Cona Mayna Mvangini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Keniya Prezidenti Uillyam Samoei Rutonun ölkəmizə səfərini, həmçinin onunla Azərbaycanda və beynəlxalq təşkilatlar çərçivəsində görüşlərini məmnunluqla xatırlatdı.

Ölkələrimiz arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu deyən Prezident İlham Əliyev vurğuladı ki, bu, digər istiqamətlər, o cümlədən iqtisadi-ticari sahədə əməkdaşlığın möhkəmləndirilməsi üçün geniş imkan yaradır. Dövlətimizin başçısı bütün sahələrdə ikitərəfli əməkdaşlıq üçün böyük potensialın olduğunu qeyd etdi.

Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzuladı.

Səfir qəbula görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. O, son dövrlərdə əlaqələrimizin inkişaf etdiyini deyərək hər iki dövlət başçısının əməkdaşlığın möhkəmləndirilməsi ilə bağlı verdikləri tapşırıqlara uyğun olaraq səylərini əsirgəməyəcəyini vurğuladı.

Cona Mayna Mvangi əməkdaşlığın genişləndirilməsi məsələsində müxtəlifsəviyyəli qarşılıqlı səfərlərin önəminə toxundu.

Görüşdə Azərbaycanla Keniya arasında bir çox sahədə əməkdaşlığın perspektivləri müzakirə olundu.

# Azərbaycançılıq ideologiyası - milli birliyimizin və dövlətçilik iradəmizin atributu

## İlham Əliyev: Azərbaycanın uğurlu və sabit inkişafının təməlində dayanan əsas səbəblərdən biri cəmiyyətimizdəki ahəngdarlıqdır

### "Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir"

Hər bir xalqın tarixi inkişaf yolunda onu bir arada saxlayan, milli kimliyini qoruyan, gələcəyə doğru vahid məqsədlər ətrafında səfərbər edən ideoloji dayaqları mövcuddur. Azərbaycan xalqı üçün belə fundamental mənəvi-siyasi təməl azərbaycançılıq ideologiyasıdır. Bu ideologiya yalnız milli mənsubiyyət və tarixi köklərlə bağlı anlayış deyil, eyni zamanda xalqımızın birliyini, həmrəyliyini, dövlətə bağlılığını və ortaq gələcəyə inamını müəyyənləşdirən mühüm dəyər sistemidir. Dünənimizdən aldığımız tarixi dərsləri bu günümüzün reallıqları ilə birləşdirərək sabahımıza istiqamət göstərən azərbaycançılıq milli inkişafımızın ideoloji kompası rolunu oynayır. Ümummilli Lider Heydər Əliyevin siyasi və fəlsəfi irsində xüsusi yer tutan bu ideologiya Onun dövlətçilik ideyalarının, xalqın bütövlüyü və milli həmrəyliyi naminə müəyyənləşdirdiyi strateji xəttin davamıdır. Məhz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində azərbaycançılıq cəmiyyətin bütün təbəqələrini, müxtəlif dünyagörüşlərini və fərqli sosial qrupları vahid milli məram ətrafında birləşdirən ümumxalq ideyasına çevrildi. Bu gün müstəqil dövlətimizin əldə etdiyi tarixi nailiyyətlərdə, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasında, xalqımızın öz gücünə və gələcəyinə inamının möhkəmlənməsində həmin ideoloji birliyin mühüm payı vardır. Azərbaycanın qazandığı uğurlar azərbaycançılığın yalnız mənəvi çağırış deyil, həm də real dövlətçilik gücü olduğunu təsdiqləyir.




## 1969-cu ildən başlanan yol

Xüsusi vurğulanmalıdır ki, bu milli ideyanın əsası hələ 1969-cu ildə Ulu Öndərin ilk dəfə ölkə rəhbəri seçilməsi ilə qoyulmuşdu. Nəinki tək sənayeləşdirmədə, həm də ölkədə milli kadrların yetişdirilməsi, ana dilimizə olan münasibətin dəyişməsi, milli mədəniyyətimizin inkişafı, Azərbaycanın dünya miqyasında tanınması istiqamətində aparılan bütün fəaliyyət Ulu Öndər Heydər Əliyevin yorulmaz fəaliyyətinin bəhrəsi idi. Sovet dövrünün ideoloji təbliğatına baxmayaraq, azərbaycançılıq hisslərinə sadiqliyini qoruyub saxlayan Ulu Öndər ölkədə Ana dilindən istifadəni təşviq etdi. Məhz Ulu Öndər tərəfindən doğma dilə verilən önəmin nəticəsi idi ki, Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında Azərbaycan dili ilk dəfə olaraq rus dili ilə yanaşı, rəsmi dövlət dili kimi öz əksini tapdı. Həmin illərdə görkəmli Azərbaycan yazıçılarının, şairlərinin, elm xadimlərinin yubileyləri keçirilir, respublika rəhbərinin özü Azərbaycan yazıçılarının qurultaylarında iştirak edir, fikir mübadilələri aparırdı. Uzaqgörən rəhbər ziyalılarımızın, xüsusilə dilçi alimlərin Ana dilimizlə bağlı sabit, mənəvi, ideoloji mövqeyinin nədən ibarət olduğunu bir daha yəqin edir və bu, Ulu Öndərə Ana dili barədə daha fəal dövlət siyasəti yeritmək imkanı verirdi. Ulu Öndər milli kadrların, xüsusilə milli zabitlərin yetişməsi istiqamətində əsaslı addımlar atdı. Həmin dövrdə general Cəmşid Naxçıvanski adına hərbi təmayüllü internat (lisey) məktəbinin açılması milli kadrların yetişməsi yönündə vacib qərarlardan biri sayılırdı. Ulu Öndər bu addımları ilə gələcək müstəqil Azərbaycanın təməllərini formalaşdırırdı.

## Müstəqilliyimizin möhkəmlənməsində milli ideologiyanın rolu böyük idi

Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı isə Azərbaycanın dövlət müstəqilliyini xilas etməklə, iqtisadi inkişafımıza təkan verməklə, hüquqi dövlət quruculuğu prosesinin başlanması ilə yanaşı, cəmiyyətimizdəki ideoloji boşluğu aradan qaldırdı. Milli birliyin təmin olunması, vətəndaş həmrəyliyinin inkişaf etdirilməsi o dövrün Azərbaycanın inkişafının əsas komponenti qismində çıxış edirdi. Belə ki, ittifaqın dağılmasının, kommunist ideologiyasından imtinanın ardından yaranan boşluq və 1992-ci ildə silahlı yolla hakimiyyətə gələn AXC-"Müsavat" cütlüyünün yanlış siyasi xətt seçməsi nəticəndə gənc, müstəqil Azərbaycan dövlətində mərkəzdənqaçma və digər hallar təzahür etməyə başladı. Bunun nəticəsi idi ki, ölkəmizdə cəmiyyətin vahid konsepsiya ətrafında, vahid ideoloji xətt ətrafında birləşməsi mühüm şərtə çevrildi. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışının ardından xalqı vahid ideologiyanın - azərbaycançılıq ideologiyasının çətiri altında birləşdirilməsi həm Azərbaycan cəmiyyətində milli birliyin formalaşdırılmasına, həm də milli dövlətçiliyin qorunmasına xidmət göstərdi.

## Dəyərlərimizi, dilimizi, ənənələrimizi, həyat tərzimizi qoruyub saxlaya bilmişik

Vurğulandığı kimi, azərbaycançılığın təməl prinsipləri Azərbaycan xalqının qədim milli-mənəvi dəyərlərinə əsaslanır. Azərbaycançılıq məfkurəsində əksini tapmış fəlsəfədə, eləcə də onu yaradan xalqın təfəkküründə etnik məhdudluq, dini dözümsüzlük, antihumanizm yoxdur. Oktyabrın 27-də Bakıda "Ortaq gələcək naminə dialoq" mövzusunda keçirilən VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində çıxış edən Prezident İlham Əliyev bildirib ki, Azərbaycan əsrlər boyu öz dövlətçiliyindən məhrum olmuşdur, baxmayaraq ki, bizim əvvəlki əsrlərdə dövlətçiliyin çox böyük ənənələri var. Lakin son iki əsrdə biz müstəqil olmamışıq: "Bununla belə, yaşadığımız sistemdən asılı olmayaraq, dəyərlərimizi, dilimizi, ənənələrimizi, həyat tərzimizi qoruyub saxlaya bilmişik. Hamınız bilirsiniz ki, biz fərqli sistemlərdə yaşamışıq. Bununla belə, yaşadığımız həmin sistemlərin heç biri bizim milli hisslərimizi, əzmimizi poza bilmədi. Ona görə də Azərbaycan müstəqilliyini bərpa etdiyi zaman biz öz taleyimizin sahibinə çevrildik".

Vurğulandığı kimi, tarixən yaşadılan, milli irsə çevrilən bu ideologiyanı məhz Ümummilli Lider Heydər Əliyev tam dolğun konsepsiya şəklinə salaraq onu yeni çalarlarla zənginləşdirdi və müasir Azərbaycanın milli ideologiyasına çevirdi. Ulu Öndər bu məfkurəni dövlət ideologiyası olaraq bərqərar etdi. Azərbaycançılığı təbliğ etməkdə Ulu Öndərin məqsədi yaşadığı məkandan asılı olmayaraq, hər bir azərbaycanlıya, soydaşımıza vətənpərvərlik hissini, tarixi torpaqlarımıza, dilimizə, mədəni irsimizə, dövlət rəmzlərimizə məhəbbət aşılamaq idi. Bu ideologiya dinindən, dilindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər bir azərbaycanlını vahid amal, ideya və Vətən ətrafında birləşdirir. Azərbaycançılıq ideologiyasına mənəvi sərvət kimi yanaşan Ümummilli Lider Heydər Əliyev deyirdi: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq... azərbaycanlılar harada yaşamalarından asılı olmayaraq daim öz milli, mənəvi dəyərlərinə, milli köklərinə sadiq olmalıdırlar. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Azərbaycan dövləti müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan bütün azərbaycanlılar üçün əsas ideya olub. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir".

Azərbaycançılıq ideologiyasının dövlət siyasəti səviyyəsinə yüksəldilməsini göstərən ən bariz cəhət bu ideologiyanın əsas prinsiplərinin Konstitusiyanın müddəalarında öz əksini tapmasıdır. Azərbaycan Konstitusiyasında ölkəmizdə milli, dini mənsubiyyətindən asılı olmayaraq, hər bir kəs qanun qarşısında bərabərhüquqludur. Bu isə hüquqi dövlət prinsipini özünün prioriteti seçmiş Azərbaycanda insan hüquq və azadlıqlarının ən böyük təcəssümlərindən biridir. Müasir dövrümüzdə belə cəmiyyətimizdə mənəvi-psixoloji sabitliyin möhkəmlənməsinin əsas səbəbi dövlətin istər daxili, istərsə də xarici siyasətində azərbaycançılıq prinsiplərinə sadiq qalması gerçəkliyidir. Bu isə Azərbaycanda müasir cəmiyyət quruculuğu prosesinin uğurla həyata keçməsində əsas faktorlardan biri kimi çıxış edir.

Eləcə də, azərbaycançılıq ideologiyası respublikamızda müxtəlif xalqların, konfessiyaların nümayəndələrinin ötən yüzilliklərdə olduğu kimi, qarşılıqlı anlaşma və harmoniya şəraitində yaşamasına və ölkənin gələcəyi naminə birgə çalışmasına zəmin yaradıb. Vahid milli ideologiya insanları cəmiyyətin tamhüquqlu üzvü olaraq özlərini topluma yararlı fərd kimi hiss etməyə, müəyyən məsuliyyət daşımağa və vətəndaşlıq borcunu yerinə yetirməyə ruhlandırır. Prezident İlham Əliyev çıxışında bildirib ki, biz Avropa ilə Asiya arasında yerləşirik. Əsrlər boyu Azərbaycan Asiya ilə Avropa arasında mədəniyyət körpüsü olub. Multikulturalizm ənənələri, dini və etnik dözümlülük xalqımızın əsrlər boyu yaşatdığı meyarlar olub və biz onları yüksək dəyərləndiririk: "Azərbaycanın uğurlu və sabit inkişafının təməlində dayanan əsas səbəblərdən biri isə cəmiyyətimizdəki ahəngdarlıqdır. Bütün etnik qrupların, dinlərin nümayəndələrinin Konstitusiyamıza uyğun olaraq, nəinki bərabər hüquqları var, onlar, həmçinin bir ailə kimi yaşayırlar. Biz həmrəylik, qarşılıqlı hörmət və anlaşmanın ən yüksək səviyyəsini həqiqətən hiss edirik. Hamımız milli ideyalar ətrafında birləşirik. Onlardan biri azərbaycançılıqdır. O, Azərbaycandakı bütün xalqları bir araya gətirir".

Azərbaycançılıq ideyasını daim aktual edən cəhətlərdən biri isə onun multikulturalizm prinsipi ilə uzlaşması və buna xidmət edən dövlət siyasətidir. Bildiyimiz kimi, Azərbaycan əsrlər boyu müxtəlif mədəniyyətlərə, dinlərə mənsub olan insanların mehriban şəraitdə birgə yaşadığı məkan olub.

Bunlar onu göstərir ki, Azərbaycanda həyata keçirilən dövlət quruculuğu prosesində milli dəyərlər, xalqın mədəni-psixoloji xüsusiyyətləri hər zaman nəzərə alınır. Məhz buna görə də dövlət siyasəti səviyyəsinə qaldırılan azərbaycançılıq ideologiyası müasir demokratiyanın təməlində dayanan vətəndaşlıq, dünyəvilik, qanunun aliliyi prinsipləri ilə xalqımızın milli-mədəni irsindən irəli gələn tolerantlıq, çoxmədəniyyətlilik, vətənpərvərlik, ədalət, milli birlik kimi dəyərlərin birləşməsinin uğurlu formulu kimi özünü göstərir. Bu səbəbdən də qonşu regionlarda dini, etnik zəmində yaşanan təlatümlər fonunda Azərbaycan "sabitlik adası" kimi öz yolunda irəliləməkdə davam edir.

## Azərbaycanda bütün xalqlar bir ailə kimi yaşayır

***P.İSMAYILOV***

# Milli Məclisin iclasında...
# 8 Noyabr Zəfər Günü münasibəti ilə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təbrik məktubları ünvanlanıb

Noyabrın 3-də Milli Məclisin növbəti iclası keçirilib. İclasın gündəliyinə 10 məsələ daxil edilib.

Əvvəlcə spiker Sahibə Qafarova 8 Noyabr Zəfər Günü barədə çıxış edib. O bildirib ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin tarixi Zəfərinin əhəmiyyəti ildən-ilə daha dolğun şəkildə üzə çıxır: "Düşünürəm ki, 44 günlük Vətən müharibəsində qələbənin mahiyyəti 4 fundamental anlayışla ifadə edilə bilər. Bunlar ədalət, dövlətçilik, hüquq və quruculuq anlayışlarıdırlar.

Ədalət anlayışı odur ki, torpaqlarımızın 30 illik işğalına son qoyulub.

8 noyabr Zəfəri dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpasına yol açıb. 2023-cü ilin sentyabr ayında keçirilən 1 günlük antiterror əməliyyatı hərb tariximizin yeni şanlı səhifəsini təşkil edib. Azərbaycan ərazisində qanunsuz fəaliyyət göstərən kriminal xunta rejiminin varlığına son qoyulub".

## Spiker: 8 noyabr Zəfəri xalqın, ordunun və dövlətin birliyinin ən yüksək ifadəsi oldu



S.Qafarova qeyd edib ki, qələbə Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyev tərəfindən ardıcıl həyata keçirilmiş güclü dövlət quruculuğunun qanunauyğun yekunudur. Böyük səylər hesabına yaradılan siyasi, iqtisadi, diplomatik və hərbi potensial tarixi qələbədə təcəssümünü tapıb. 8 noyabr Zəfəri xalqın, ordunun və dövlətin birliyinin ən yüksək ifadəsi oldu.

"BMT Təhlükəsizlik Şurasının, digər beynəlxalq təşkilatların onilliklər boyu kağız üzərində qalmış qərarları həyata keçirilib. Dövlətlərin ərazi bütövlüyü prinsipi və beynəlxalq hüququn gücü bərqərar edilib. Bu isə qələbənin mahiyyətini ifadə edən hüquq anlayışıdır. Quruculuq anlayışına gəlincə, Qarabağın və Şərqi Zəngəzurun bərpa olunması, "Böyük Qayıdış" proqramının icrası qələbəmizi real məzmunla zənginləşdirir. Keçmiş məcburi köçkünlərin doğma yurdlarına dönməsi azad olunmuş torpaqlarımıza həyat gətirir" - deyən spiker əlavə edib ki, böyük qələbə Cənubi Qafqazda möhkəm sülhün bərqərar edilməsi üçün də tarixi imkan yaradıb.

Dövlət başçısı İlham Əliyevin ardıcıl səyləri regionun dayanıqlı təhlükəsizlik arxitekturasının qurulmasına və əməkdaşlıq imkanlarının reallaşdırılmasına yönəlib. O, əminliklə söyləyib ki, Prezidentin bütün layihələri kimi, bu layihə də uğurla başa çatdırılacaq. Spiker Azərbaycana tarixi Zəfəri bəxş etmiş Ali Baş Komandana, qəhrəman əsgər və zabitlərimizə minnətdarlığını bildirib, Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə isə cansağlığı arzulayıb.

"Təklif edirəm, Zəfər Günü münasibəti ilə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq. Azərbaycan xalqının və dövlətinin bu günü və sabahı naminə dəyərli fəaliyyətlərində onlara yeni böyük uğurlar arzulayaq" - deyə S.Qafarova vurğulayıb.

## Səməd Seyidov: Azərbaycan-Özbəkistan münasibətləri keyfiyyətcə yeni mərhələyə yüksəlib

Sonra gündəlikdəki məsələlər müzakirəyə çıxarılıb. Əvvəlcə 8 Noyabr - Zəfər Günü ilə əlaqədar Milli Məclisin Bəyanatı qəbul olunub.

İclasda "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əbədi dostluq haqqında Müqavilə"nin təsdiq edilməsi barədə qanun layihəsi qəbul olunub. Layihə haqqında məlumat verən parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov bildirib ki, sənəd iki qardaş xalqın ortaq tarixinin, mənəvi yaxınlığının, qarşılıqlı etimadının və ən əsası, gələcəyə birgə baxışının hüquqi və siyasi ifadəsidir. Onun sözlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin uzaqgörən siyasəti nəticəsində bu gün Azərbaycan-Özbəkistan münasibətləri keyfiyyətcə tamamilə yeni mərhələyə yüksəlib.

Komitə sədri diqqətə çatdırıb ki, 2026-cı il avqustun 23-də Daşkənd şəhərində imzalanmış və 11 maddədən ibarət olan bu müqavilənin siyasi-fəlsəfi mahiyyəti onun adında öz əksini tapır: "Bu müqavilənin əhəmiyyətini yalnız ikitərəfli münasibətlər çərçivəsində qiymətləndirmək düzgün olmazdı. Bu gün Azərbaycan və Özbəkistan daha geniş coğrafiyada, xüsusilə Türk dünyasının inteqrasiyasında, Mərkəzi Asiya ilə Cənubi Qafqazın nəqliyyat və logistikasında, Orta Dəhlizin inkişafında mühüm rol oynayan iki dövlətdir".

Sonra "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında pensiya təminatı sahəsində əməkdaşlıq haqqında Saziş" də təsdiq edilib.

İclasda Miqrasiya Məcəlləsinə təklif olunan dəyişikliklər isə birinci oxunuşda qəbul olunub. Layihəyə əsasən, müvəqqəti yaşamaq üçün icazə verilən, iş üçün icazə tələb olunmayan əcnəbilərin əhatə dairəsi genişlənir. Aqroparkın rezidentinin hüquqi şəxs olduqda onun rəhbərinin və müavinlərinin, habelə həmin rezident tərəfindən Azərbaycan ərazisində əmək fəaliyyətinə cəlb edilən və müvafiq fəaliyyət sahəsində təcrübəyə malik aqronomların, bağçılıq üzrə mütəxəssislərin və baytar həkimlərin bu subyektlər dairəsinə daxil edilməsi nəzərdə tutulur.

## Hərbi qulluqçular üçün yeni məsuliyyət növləri müəyyənləşir

İnzibati Xətalar Məcəlləsində də yeni dəyişikliklər (birinci oxunuş) edilib. Dəyişikliklərə əsasən, zabit, gizir, miçman, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun məsuliyyəti artırılır, alternativ cəza müəyyənləşir. Qanun layihəsində həmin şəxslərin bir gündən artıq hərbi hissədə və ya xidmət yerində olmaması onların inzibati məsuliyyətinə səbəb olması ilə nəticələnməsi əksini tapıb. Belə ki, zabitin, gizirin, miçmanın, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun hərbi hissədən və ya xidmət yerindən özbaşına getməsi, habelə üzrlü səbəblər olmadan hərbi hissəyə və ya xidmət yerinə vaxtında gəlməməsi bir gündən artıq, lakin on gündən çox olmayaraq törədildikdə iki yüz manatdan üç yüz manatadək məbləğdə cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla on beş günədək müddətə inzibati həbs tətbiq olunacaq.

Həmin əməllər inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla on gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunacaq. Qüvvədə olan Məcəlləyə görə isə həmin inzibati xəta üçün on beş gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunur.

Deputatlar "Elektron ticarət haqqında" qanuna da (birinci oxunuş) dəyişikliklər ediblər. Layihəyə əsasən, "texnoloji neytrallıq" anlayışı və müvafiq prinsip "Elektron ticarət haqqında" qanuna daxil edilir. Texnoloji neytrallıq elektron ticarət münasibətlərində bu sahədəki normativ hüquqi aktlarla hər hansı bir texnologiyanın üstün tutulmaması, tətbiqində məhdudiyyətlərin qoyulmaması və müxtəlif texnoloji həllərin bərabər qəbul olunmasıdır. Eyni zamanda ödənişin həyata keçirilməsi ilə bağlı müddəalar təkmilləşdirilir, elektron ticarət sahəsində ödəniş üsullarının təkmilləşdirilməsindən irəli gələrək bəzi uyğunlaşdırıcı dəyişikliklər edilir.

Qeyd edək ki, iclasda gündəlikdə olan digər qanun layihələri də qəbul edilib.

*Nardar BAYRAMLI*

# "Gələcək nəsillərə güclü dövləti miras qoymaq hamımızın borcudur"
## Milli Məclis 8 Noyabr - Zəfər Günü ilə əlaqədar bəyanat qəbul edib

Milli Məclisin dünən keçirilən iclasında 8 Noyabr - Zəfər Günü ilə əlaqədar bəyanat qəbul olunub. Bəyanatda bildirilib ki, 2020-ci ilin sentyabr - noyabr aylarında 44 günlük Vətən müharibəsində Zəfər Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xalqımızın, ordumuzun və dövlətimizin birliyi sayəsində əldə edilib. Azərbaycan milli maraqlarını müdafiə etmək üçün lazımi siyasi iradəyə, siyasi, iqtisadi, hərbi və diplomatik imkanlara malik olduğunu nümayiş etdirib.

Qeyd olunub ki, Silahlı Qüvvələrimiz yüksək döyüş məharəti nümayiş etdirərək dünya hərb tarixinə şanlı səhifələr yazmışlar: "Düşmənin uzun illər ərzində qurduğu, keçilməz hesab edilən müdafiə xətləri yarılıb, hava hücumundan müdafiə sistemi və hərbi hava qüvvələri sıradan çıxarılıb. İşğalçı qüvvələrə ağır zərbələr endirilib, onların çoxlu sayda canlı qüvvəsi və hərbi texnikası məhv edilib. Ölkəmizin işğal altında olan ərazisinin böyük bir hissəsi, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları, Hadrut qəsəbəsi, ümumən 300-ə yaxın yaşayış məntəqəsi düşmən tapdağından azad edilib. Vətən müharibəsinin ən şərəfli səhifələrindən biri noyabr ayının 8-də Qarabağın incisi və tacı, Azərbaycan mədəniyyətinin beşiyi olan Şuşanın işğaldan azad edildiyi gün olub. Azərbaycan şəhid və qazilərinin canı və qanı bahasına BMT Təhlükəsizlik Şurasının və Baş Assambleyasının, İslam Əməkdaşlığı Təşkilatının, ATƏT-in və digər beynəlxalq təşkilatların qətnamə və qərarlarının icrasını təmin edərək, tarixi ədaləti və beynəlxalq hüquq normalarının və prinsiplərinin qüvvəsini bərpa edib".

Bəyanatda, eyni zamanda Azərbaycan dövlətinin diplomatik səylərinin Kəlbəcər, Ağdam və Laçın rayonlarının dinc yolla azad edilməsinə gətirib çıxardığı vurğulanıb. Həmçinin diqqətə çatdırılıb ki, 2020-ci ildə qazanılmış tarixi qələbə Azərbaycanın dövlət suverenliyinin tam bərpası üçün möhkəm təməl yaradıb. 2023-cü il sentyabrın 19-20-də keçirilmiş antiterror əməliyyatı nəticəsində qanunsuz silahlı birləşmələr tərk-silah edilmiş, separatçı rejim ləğv olunmuş və ölkənin bütün ərazisində Konstitusiya quruluşu bərqərar edilib. Xankəndi şəhərində və azad edilmiş digər yaşayış məntəqələrində Dövlət Bayrağının ucaldılması milli iradəmizin təntənəsini və dövlətçiliyimizin sarsılmazlığını əyani təcəssüm etdirib.

Diqqətə çatdırılıb ki, döyüş meydanlarında hərbi qələbələr Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş milli dövlətçilik konsepsiyasının ardıcıl həyata keçirilməsinin qanunauyğun nəticəsi olub. İqtisadiyyatın inkişaf etdirilməsi, müasir ordunun qurulması, ölkənin beynəlxalq mövqelərinin möhkəmləndirilməsi və gənc nəsilin vətənpərvərlik ruhunda tərbiyələndirilməsi doğma torpaqlarımızın işğaldan azad edilməsi üçün lazımi şərait yaratmışdı. Bütün xalqın qüvvələrinin "dəmir yumruq" kimi birləşdirilməsi mövcud imkanları taleyüklü milli vəzifəni yerinə yetirməyə qadir olan qarşısıalınmaz qüvvəyə çevirib. "Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin siyasi və hərbi liderliyi tarixi qələbənin qazanılmasında müstəsna rol oynayıb. Onun strateji baxışı, siyasi iradəsi, sərkərdəlik məharəti və tarixin həlledici məqamlarında düzgün qərarlar qəbul etmək qabiliyyəti hərbi, diplomatik və informasiya istiqamətlərində fəaliyyəti vahid hədəfə yönəltməyə imkan verib. Dövlət başçısının rəhbərliyi ilə ölkənin iqtisadi potensialı müdafiə qüdrətinə, ümumxalq dəstəyi sarsılmaz qətiyyətə, döyüş meydanında qələbələr isə uzunmüddətli siyasi nəticələrə çevrilib. Prezident İlham Əliyev xalqı vətən torpaqlarının azad edilməsi ideyası ətrafında birləşdirərək və bu amalı həyata keçirərək tarixi bir missiyanı yerinə yetirib. Xalqımız öz müqəddəratını özü müəyyənləşdirməyə, hüquqlarını müdafiə etməyə və qarşıya qoyduğu məqsədləri əldə etməyə qüdrəti çatan yenilməz xalq olduğunu göstərib" -deyə bildirilib.

Bəyanatda qeyd olunub ki, dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpası Cənubi Qafqazda uzunmüddətli sülh yaradılması üçün yeni imkanlar açıb. Müharibədən sonra sülh gündəliyinin təşəbbüsçüsü olan Azərbaycan beynəlxalq hüquq normalarına və prinsiplərinə əsaslanaraq dövlətlərarası münasibətlərin normallaşdırılması üçün ardıcıl səylər göstərir. Bizim dövlətimiz dayanıqlı sülhü regionun bütün xalqlarının təhlükəsizliyinin və rifahının zəruri şərti hesab edir. Bu baxımdan 2025-ci il avqustun 8-də Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın iştirakı ilə əldə edilmiş Vaşinqton razılaşmaları xüsusi əhəmiyyətə malikdir. Azərbaycanla Ermənistan arasında birgə bəyannamənin imzalanması, sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında sazişin mətninin paraflanması uzun illər davam etmiş qarşıdurmanın aradan qaldırılması yolunda mühüm addım olub. Bu razılaşmalar sülh prosesinin irəli aparılmasına, kommunikasiyaların açılmasına, qarşılıqlı hörmətə və revanşizmdən imtinaya əsaslanan münasibətlər qurulmasına şərait yaradıb.

Milli Məclis hesab edir ki, uzunmüddətli sülh yaradılması qəbul olunmuş öhdəliklərin yerinə yetirilməsini, ərazi iddialarına bəhanə verə bilən şərtlərin aradan qaldırılmasını, etimadsızlığa və düşmənçiliyə meydan açan hərəkətlərə yol verilməməsini tələb edir. Beynəlxalq birlik region dövlətlərinin suveren seçiminə və təşəkkül tapmış yeni reallıqlara hörmətlə yanaşaraq, birbaşa dialoqa və əməli əməkdaşlığa kömək göstərməlidir.

Bəyanatda diqqətə çatdırılıb ki, bu gün azad Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir: "İşğal dövründə viran qoyulmuş torpaqlarda şəhər və kəndlər yenidən inşa olunur, müasir nəqliyyat və enerji şəbəkələri, təhsil və tibb müəssisələri, digər obyektlər yaradılır. Tarixi, mədəni və dini abidələr bərpa olunur, iqtisadi fəaliyyət və əhalinin layiqli yaşayışı üçün şərait təmin edilir. Həyata keçirilən "Böyük Qayıdış" proqramı Zəfərə konkret quruculuq məzmunu verir. Keçmiş məcburi köçkünlərin doğma yurdlarına qaytarılması nəticəsində onların pozulmuş hüquqları və sabaha inamı bərpa olunur, soydaşlarımız əcdadlarının torpağına qovuşur, işğalçıların məhv etməyə çalışdıqları həyat yenidən dirçəldilir".

Milli Məclis əmin olduğunu bildirib ki, ölkənin müdafiə qabiliyyətinin daha da möhkəmləndirilməsi dövlət müstəqilliyini və suverenliyi qorumağın vacib şərti olaraq qalır. Güclü Azərbaycan öz təhlükəsizliyinin etibarlı təminatçısı və regional sabitliyin mühüm amilidir. "Biz Prezident İlham Əliyevin həyata keçirdiyi dövlətçiliyin möhkəmləndirilməsi, xalqın rifahının yüksəldilməsi, azad edilmiş ərazilərin bərpası və uzunmüddətli sülhün bərqərar edilməsi xəttini qətiyyətlə dəstəklədiyimizi bildiririk. Parlament həmin vəzifələrin yerinə yetirilməsi üçün zəruri qanunvericilik bazasını bundan sonra da təmin edəcək, milli maraqların müdafiəsi üçün parlament diplomatiyasının imkanlarından səmərəli istifadə edəcək. Milli Məclis Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevi, Silahlı Qüvvələrimizin əsgər və zabitlərini, şəhid ailələrini və qaziləri, bütün xalqımızı Zəfər Günü münasibəti ilə təbrik edir. Tarixi qələbəmizin nailiyyətlərini qorumaq, müstəqil Azərbaycanı daha da möhkəmləndirmək, gələcək nəsillərə güclü dövləti miras qoymaq hamımızın borcudur" - deyə, bəyanatda vurğulanıb.

*Nardar BAYRAMLI*

# Qarşıdakı mərhələdə əsas hədəflər...
## Ombudsmanın tövsiyələrinin icrasına nəzarət mexanizmlərinin gücləndirilməsi bu hədəflər sırasındadır

Milli Məclisin dünən keçirilən iclasında Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) seçilməsi məsələsinə baxılıb. Bildirilib ki, Azərbaycan Prezidentinin imzası ilə Milli Məclisə Ombudsman vəzifəsinə üç namizəd təqdim olunub. Bunlar-hazırkı Ombudsman, hüquq üzrə fəlsəfə doktoru Səbinə Əliyeva, Konstitusiya Məhkəməsinin keçmiş hakimi, hüquq elmləri doktoru, professor Ceyhun Qaracayev və Ali Məhkəmənin hakimi, Hakimlərin Seçki Komitəsinin üzvü Elşanə Vəliyevadır. Namizədlərin hər üçü ali hüquq təhsilli və müvafiq sahədə peşəkar təcrübəyə malik şəxslərdir.

**Səbinə Əliyeva yenidən Ombudsman seçilib**

Səsvermə nəticəsində Səbinə Əliyeva yenidən Azərbaycanın İnsan hüquqları üzrə müvəkkili seçilib və parlamentdə and içib. Çıxış edən S.Əliyeva göstərilən etimada görə Azərbaycan Prezidenti İlham Əliyevə və Milli Məclisin deputatlarına təşəkkür edib. O qeyd edib ki, ölkəmizdə həyata keçirilən institusional islahatlar çərçivəsində Ombudsman təsisatının Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılması, habelə insan hüquq və azadlıqlarının təmin edilməsi üzrə dövlətin ali məqsədinin həyata keçirilməsinə xidmət etməsi bu vəzifənin icrası ilə bağlı üzərimə düşən məsuliyyətin tarixi və mənəvi əhəmiyyətini daha da artırır. Ali Baş Komandanın rəhbərliyi, ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın dəstəyi ilə işğaldan azad olunmuş ərazilərin yenidən qurulması, tarixi, mədəni və dini abidələrin bərpası, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı onların hüquqlarının təmin olunmasına böyük töhfə verir və bu proses hər bir azərbaycanlını qürurlandırır. Ölkəmizdə insan hüquqlarının təmin olunması istiqamətində həyata keçirilən dövlət siyasətinin mühüm təzahürlərindən biri də Böyük Qayıdış proqramının uğurla icra olunmasıdır.

"Ombudsman kimi ötən illər ərzində fəaliyyətimin əsas istiqamətlərini insan hüquq və azadlıqlarının müdafiəsinin gücləndirilməsi, hüquq pozuntularının qarşısının alınması, Müvəkkilə əlçatanlıq imkanlarının artırılması, vətəndaş məmnunluğunun təmin edilməsi və təsisatın beynəlxalq standartlara uyğun inkişaf etdirilməsi təşkil edib. Xüsusilə 44 günlük Vətən müharibəsi və postmüharibə dövründə münaqişədən zərər çəkmiş şəxslərin hüquqlarının müdafiəsi, Ermənistan tərəfindən beynəlxalq hüququn və insan hüquqlarının pozulması hallarının araşdırılması, sənədləşdirilməsi və beynəlxalq ictimaiyyətə çatdırılması, habelə bu hallara beynəlxalq hüquqi qiymət verilməsi istiqamətində ardıcıl fəaliyyət həyata keçirilib" - deyən S.Əliyeva əlavə edib ki, Azərbaycan Prezidentinin qanunvericilik təşəbbüsləri əsasında Ombudsmanın mandatı genişləndirilib, inklyüzivliyin təmin edilməsi, uşaq hüquqlarının və əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi üzrə müstəqil monitorinq səlahiyyətləri müəyyən edilib, şikayətlərin araşdırılması və milli preventiv mexanizm fəaliyyəti sahəsində hüquqi imkanlar gücləndirilib.

**İnsan hüquqları sahəsində qanunvericiliyin təkmilləşdirilməsi...**

Onun sözlərinə görə, regional mərkəzlərin fəaliyyətinin təkmilləşdirilməsi və Naxçıvan Muxtar Respublikasında yeni regional mərkəzin yaradılması təsisatın institusional potensialının gücləndirilməsinə və əhalinin



hüquq müdafiə mexanizmlərinə əlçatanlığının artırılmasına xidmət edir. S.Əliyeva qeyd edib ki, Ombudsmanın hüquq müdafiə, preventiv və nəzarət fəaliyyəti beynəlxalq səviyyədə müsbət təcrübə nümunəsi kimi dəyərləndirilib. Beynəlxalq əməkdaşlıq sahəsində də mühüm nailiyyətlər əldə olunub, Azərbaycan Ombudsmanının beynəlxalq təşkilatlarda rəhbər vəzifələrə seçilməsi, təsisatın Beynəlxalq Ombudsman İnstitutu, Asiya Ombudsman Assosiasiyası, Türk Dövlətləri Ombudsman və Milli İnsan Hüquqları İnstitutları Assosiasiyası, Avropa Uşaq Hüquqları Ombudsmanları Şəbəkəsi, İnformasiya Komissarlarının Beynəlxalq Konfransı kimi nüfuzlu beynəlxalq şəbəkələrə üzv qəbul edilməsi və təmsilçiliyinin genişlənməsi təmin olunub.

O diqqətə çatdırıb ki, qarşıdakı mərhələdə əsas hədəf Ombudsmanın tövsiyələrinin icrasına nəzarət mexanizmlərinin gücləndirilməsi və insan hüquqları sahəsində qanunvericiliyin təkmilləşdirilməsidir. Bununla yanaşı, həssas əhali qruplarının hüquqlarının müdafiəsinin gücləndirilməsi, milli preventiv və müstəqil monitorinq mexanizmlərinin təkmilləşdirilməsi, regionlarda Ombudsmana əlçatanlığın artırılması, habelə rəqəmsal transformasiya və süni intellekt kontekstində insan hüquqlarının müdafiəsinə dair müasir yanaşmaların təşviqi və tətbiqi prioritet istiqamətlər sırasında olacaq.

**Hüquqi maarifləndirmə işləri gücləndiriləcək**

Ombudsman onu da deyib ki, hüquqi maarifləndirmə fəaliyyətinin müasir tələblər və yeni çağırışlar nəzərə alınmaqla təkmilləşdirilməsi, ictimai iştirakçılığın təşviqi və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın gücləndirilməsi də əsas hədəflərimizdəndir. Beynəlxalq əməkdaşlıq çərçivəsində milli təcrübənin təşviqi, ölkəmizin insan hüquqları sahəsində nailiyyətlərinin, eləcə də müharibə və postmüharibə dövrünün humanitar nəticələrinin obyektiv faktlar və hüquqi əsaslarla beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində də fəaliyyət davam etdiriləcək.

"Yenidən göstərilən bu yüksək etimadı insan hüquq və azadlıqlarının müdafiəsi kimi şərəfli və məsuliyyətli missiyanın davam etdirilməsinə verilən xüsusi dəyərin ifadəsi kimi qəbul edirəm. Sizi əmin etmək istərdim ki, ötən illər ərzində qazanılmış təcrübə və gücləndirilmiş institusional imkanlar Ombudsman təsisatının fəaliyyətinin müasir çağırışlara uyğun təkmilləşdirilməsinə, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində yeni nailiyyətlərin əldə olunmasına möhkəm zəmin yaradacaq və Milli Məclislə qurulan uğurlu əməkdaşlığımız daha da güclənəcək" - deyə S.Əliyeva vurğulayıb.

*Nardar BAYRAMLI*

# Azərbaycan-Çin Sənaye Parkı yaradılır

İqtisadiyyat naziri Mikayıl Cabbarovla "CSCEC International" şirkətinin İdarə Heyətinin sədri Qao Bo arasında keçirilən görüşdə Azərbaycan-Çin iqtisadi əməkdaşlığı müzakirə olunub. Çin şirkətlərinin ölkəmizdə infrastruktur, şəhərsalma, energetika, sənaye və digər sahələrdə fəaliyyətinin artırılması perspektivləri nəzərdən keçirilib. Tərəflər Azərbaycan-Çin Sənaye Parkının yaradılması və bu istiqamətdə "CSCEC International" şirkəti ilə potensial əməkdaşlıq imkanlarını dəyərləndiriblər.

Qeyd edək ki, "CSCEC International" bina və infrastruktur layihələrini həyata keçirən beynəlxalq şirkətdir. Şirkət daşınmaz əmlak, investisiya, layihələndirmə və mühəndislik sahələrində fəaliyyət göstərir.

## Sumqayıt Kimya Sənaye Parkında Çin rezidentlərinin sayı artır

Azərbaycanda həyata keçirilən sənayeləşmə siyasəti çərçivəsində görülən işlər, qeyri-neft sektorunun inkişafında sənaye zonalarının əhəmiyyəti, sənaye parklarında sahibkarlar üçün yaradılmış əlverişli şərait, rezidentlər üçün tətbiq edilən vergi-gömrük güzəştləri, digər stimullaşdırıcı mexanizmlər Çin sənaye ailəsinin marağına səbəb olmaqdadır. Çin şirkətləri bu münbit iqtisadi şəraiti nəzərə alaraq son illərdə Azərbaycanda birgə layihələrdə geniş təmsil olunmaqdadır. Azərbaycanda 450-dən çox Çin şirkəti və korporasiyası müxtəlif iqtisadi sahələrdə təmsil olunur ki, həmin şirkətlərin təxminən 40 faizi sənaye və "ağıllı texnologiyalar" sektorunda fəaliyyət göstərir.

Azərbaycanın ən nəhəng sənaye zonalarından biri olan Ələt Azad İqtisadi Zonasında çinli investorlar xeyli müddətdir ki, sənaye şəbəkəsinə qoşulub. Çinin yüksək texnologiyalı şirkətlərindən olan "Sichuan Sunsync Photovoltaic Technology Co., Ltd." burada günəş panelləri istehsalı müəssisəsi yaradıb. Müəssisələrdə illik 3 qiqavat (QVt) istehsal gücünə malik günəş panelləri, həmçinin silisium kristalları və komponentləri istehsal olunur.



Çinin "Vanhong Ceramics Co." MMC bir neçə ildir ki, Sumqayıt Kimya Sənaye Parkının rezidenti kimi sənaye istehsalına öz töhfəsini verir.100 faiz Çin kapitallı olan şirkət sənaye parkının ərazisində ilk mərhələdə 40 milyon dollar investisiya yatırıb və keramik plitələr istehsal edir. Şirkət son 2 ildə sərmayələrini daha da böyüdərək istehsal olunan məhsulların xarici ölkələrə ixracında da fəal yer almaqdadır.

## "BYD Company Limited"lə birgə əməkdaşlıq

Son bir ildə Çin investorları ilə Azərbaycan dövlət nümayəndələri arasında keçirilən görüşlərdə irimiqyaslı əməkdaşlıq, investisiya şərtləri və strateji prioritetlər barədə açıq dialoq qurulub və sənaye korporasiyaları arasında əlaqələndirməyə dair anlaşmalar əldə olunub. aparılıb, B2B formatlı görüşlər keçirilib.

Ötən ildən başlayaraq Sumqayıt Kimya Sənaye Parkında Çinin nəhəng avtomobil sənayesi holdinqi olan "BYD Company Limited" şirkəti ilə əməkdaşlıq çərçivəsində elektrik mühərrikli avtobusların istehsalı həyata keçirilməkdədir. Çinin "Ka Shui International Holdings Ltd." şirkəti ölkəmizdə sənaye parklarına investisiya yatırılması imkanlarını nəzərdən keçirir. Eləcə də, məşhur "Dragon Mining Resources Ltd." şirkəti də Sumqayıt Kimya Sənaye Parkında rezident statusu əldə etmək niyyətindədir. "Ka Shui International Holdings Ltd." şirkətinin də sənaye zonalarına marağı böyükdür. "Wenzhou Wanhong Trading Co." şirkətinin də Azərbaycanın sənaye zonalarında müştərək istehsal imkanlarında təmsil olunması nəzərdə tutulur.

Çinin "China Datang Overseas Investment Co", "Dongfang Corporation", "ZTE Corporation", "Sinoma Beijing Triumph", "Jiangsu Inter-China Group" və digər korporasiyaları da Azərbaycanın sənaye sektorlarında uğurlu fəaliyyətini davam etdirməkdədir.

## Qarabağdakı sənaye parklarında Çin şirkətlərinin təmsilçiliyi

Çin şirkətləri Qarabağda yaradılan sənaye parklarında investisiya imkanlarından yararlanmaq niyyətini gizlətmir. Bir müddət əvvəl ölkəmizdə səfərdə olan Çin Beynəlxalq İqtisadi Əməkdaşlıq Assosiasiyasının nümayəndəsi Van Veyveyin rəhbərlik etdiyi nümayəndə heyəti ilə İqtisadi Zonaların İnkişafı Agentliyinin rəhbərliyi arasında keçirilən görüşdə işğaldan azad edilmiş ərazilərdə yaradılan sənaye parkları, burada sahibkarlar üçün yaradılmış əlverişli biznes imkanları müzakirə olunub. Çin nümayəndə heyəti Qarabağda yeni qurulan sənaye bölmələrinə sərmayə qoymaq planlarını təqdim edib, qarşılıqlı əməkdaşlıq əlaqələrinin qurulması, birgə layihələrin həyata keçirilməsinə razı olduqlarını diqqətə çatdırıb.

Ümumilikdə, qlobal "yaşıl sənaye" cəmiyyətinə keçiddə mühüm rol oynayan Çin dünyanın ən böyük sənaye zəncirlərini qurmaqdadır. Çinin qlobal sənaye şirkətləri dünya bazarında İT və sənaye mübadilələrində mühüm mövqeyə malikdir. Həmin şirkətlərin böyük bir qisminin ölkəmizdə sənaye sektorunda təmsil olunması vahid sənaye bloklarının qurulması, sənaye zonalarında müştərək istehsal-emal-ixrac xəttininin və Sənaye Parkının qurulmasını labüdləşdirir. Bu baxımdan, Azərbaycanla birgə əməkdaşlıq sənaye arxitekturasının möhkəmlənməsinə, müasir iqtisadi inkişafda töhfəverici rol oynayan sənaye zonalarının əlavə dəyər yaratmasında potensiallarını gücləndirəcək. Birgə Sənaye Parkı Cənubi Qafqazda və digər regionlarda böyükhəcmli sənaye ixracı şəbəkəsini formalaşdırmaqla, Azərbaycan və Çinin müştərək sənaye simasını qlobal ticarətə təqdim edəcək.

*E.CƏFƏRLİ*

# İqtisadi-ticari əməkdaşlığı gücləndirmək üçün yeni gündəlik

## İƏT-in İqtisadi və Ticarət Əməkdaşlığı üzrə Daimi Komitəsinin 42-ci toplantısı keçirilib

Türkiyənin İstanbul şəhərində İslam Əməkdaşlıq Təşkilatının (İƏT) İqtisadi və Ticarət Əməkdaşlığı üzrə Daimi Komitəsinin (COMCEC) 42-ci toplantısı keçirilib.

Tədbirdə üzv ölkələr arasında iqtisadi və ticarət əməkdaşlığın gücləndirilməsi, investisiya, kənd təsərrüfatı, nəqliyyat, turizm, maliyyə və özəl sektorun inkişafı, davamlı inkişafın dəstəklənməsi ilə bağlı faydalı müzakirələr aparılıb.

Tədbirdə çıxış edən Türkiyənin ticarət naziri Ömər Bolat qlobal ticarətin mövcud vəziyyəti, iqtisadi natarazlıqlar və bunun fonunda əməkdaşlıqlarda yaranan qeyri-müəyyənliklər barədə danışıb. Vurğulanıb ki, İƏT üzvü olan 57 ölkə 2 milyarddan çox əhalisi (dünya əhalisinin dörddə biri), 10 trilyon ABŞ dolları həcmində iqtisadi buraxılışı və 5 trilyon dollara yaxın ticarət dövriyyəsi ilə qlobal iqtisadiyyatda nəhəng potensiala malikdir. Son 20 ildə təşkilata üzv ölkələr arasında daxili ticarət payı 6 faizdən 20 faizə yüksəlib. Türkiyənin İƏT ölkələri ilə ticarət dövriyyəsi isə 2013-cü ildəki 87,5 milyard dollardan ötən il təxminən 120 milyard dollara çatıb.

Çıxış edən digər natiqlər davamlı iqtisadi artıma nail olunması, üzv dövlətlərin davamlı iqtisadi inkişafının təmin edilməsi, ticarətin liberallaşdırılması və region daxili ticarətin təşviqi, üzv dövlətlərin iqtisadiyyatının dünya iqtisadiyyatına tədricən inteqrasiyası, nəqliyyat və kommunikasiya sisteminin inkişaf etdirilməsi, iqtisadiyyatın liberallaşdırılması yönündə İƏT-in ortaq platforma kimi fəaliyyətini yüksək dəyərləndiriblər.

## Azərbaycan İƏT platformasında mühüm rol oynayır

Tədbir çərçivəsində üzv dövlətlərin biznes icmalarını, investorlarını və siyasətçilərini bir araya gətirən "B57+ Biznes Liderləri Sammiti 2026" təşkil edilib. "Böyük dönüşüm: Qlobal Cənubun dözümlülüyü üçün İƏT kapitalının hərəkətə keçirilməsi" mövzusunda keçirilən sammitdə İƏT və daha geniş coğrafiyada iqtisadi əməkdaşlığın gələcəyini formalaşdıran liderlər, siyasətçilər, investorlar və digər təmsilçilərin ortaq maraqlarını ifadə edən mühüm təşəbbüslər və ideyalara nəzər salınıb. Bildirilib ki, tərəfdaşlar arasında möhkəmlənən münasibətlər və iqtisadi dialoqlar faydalı əməkdaşlığı gücləndirir, institisional qərarlar meydana çıxan maneələri körpülərə çevirir, ortaq dəyərləri davamlı iqtisadi tərəqqiyə yönləndirir. Nəticədə, İƏT coğrafiyasında mövcud olan böyük potensiallar real investisiyalara, keyfiyyətli məşğulluğa və yüksək rifaha inteqrasiya edilir.








Sammitdə Azərbaycanın İƏT platformasında strateji rolu, iqtisadi potensialı və regional inteqrasiyada və digər istiqamətlər üzrə tərəfdaşlığın genişləndirilməsində fəal mövqeyinə diqqət çəkilib. Ölkəmizdə formalaşmış əlverişli investisiya mühiti, rəqəmsal ticarətin təşviqi, nəqliyyat-logistika infrastrukturunun modernləşdirilməsi və yeni ticarət marşrutlarının formalaşdırılması istiqamətində görülən işlər yüksək dəyərləndirilib və İƏT məkanında iqtisadi-ticari mübadilələrin artmasına mühüm fayda verdiyi bildirilib. Qeyd olunub ki, Azərbaycan üzv ölkələrlə iqtisadi-ticarət əlaqələrini daim inkişaf etdirir. 2025-ci ildə İƏT ölkələri ilə ticarət dövriyyəsi 8 milyard dolları ötüb, cari ilin birinci yarısında bu rəqəm 5 milyard dollara yaxınlaşıb.

## Nəqliyyat-logistika sistemlərinin rəqəmsallaşdırılması

Ümumilikdə, COMCEC-in 42-ci toplantısı çərçivəsində təşkil edilən digər tədbirlərdə İƏT-ə üzv ölkələrin ticarət və sənaye palatalarının nümayəndələri transsərhəd ticarət infrastrukturunun genişləndirilməsi və investisiyaların təşviqi mexanizmlərinin təkmilləşdirilməsinin əhəmiyyəti barədə fikirlərini bildiriblər. Regional dəyər zəncirlərinin inkişafı, nəqliyyat-logistika sistemlərinin rəqəmsallaşdırılması, gömrük prosedurlarının sadələşdirilməsi üçün vahid platformaların yaradılması kimi məsələlərə toxunulub. Qeyd edilib ki, özəl sektorun regional strategiyaların formalaşdırılmasında daha fəal iştirakı və dövlət-özəl tərəfdaşlığının institusional əsaslarla gücləndirilməsi önəm kəsb edir. Forum "biznes-dövlət" (B2G) və "biznes-biznes" (B2B) formatında görüşlərlə davam edib.

Qeyd edək ki, İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatası (ICCD) və Türkiyə Palatalar və Birjalar Birliyi (TOBB) tərəfindən yaradılan "B57+" platforması, İƏT-ə üzv 57 ölkə və tərəfdaş iqtisadiyyatlar arasında dövlət və özəl sektorları bir araya gətirən strateji körpü rolu oynayır.

*E.CƏFƏRLİ*

# Avropa ilə Asiya arasında rəqəmsal dəhliz

## TDT ölkələri Transxəzər Fiber-Optik Kabel Xəttinə qoşula bilər


Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Türk Dövlətləri Təşkilatı (TDT) ölkələrini Qazaxıstan və Azərbaycan arasında işə salınmış Transxəzər Fiber-Optik Kabel Xəttinin imkanlarından istifadə etməyə çağırıb. Tokayev əmin olduğunu bildirib ki, Türk dövlətləri bu unikal layihənin imkanlarından yararlana biləcəklər. Eyni zamanda, fiber-optik əməkdaşlıq TDT üzvləri arasında rəqəmsal inteqrasiyanı möhkəmləndirməklə, Kibertəhlükəsizlik Şurasının, eləcə də rəqəmsal monitorinq və innovasiya mərkəzlərinin yaradılması üzrə təşəbbüslərin reallaşdırılmasına da töhfə verə bilər.

Xatırladaq ki, Trans-Xəzər Fiber-Optik Kabel Xəttinin onlayn formatda rəsmi açılışı ötən ay- oktyabrın 15-də Bakıda keçirilən AQEM-in 7-ci Zirvə Görüşü çərçivəsində baş tutub. Prezident İlham Əliyev və Kasım-Jomart Tokayevin iştirakı ilə keçirilən mərasimdə yeni marşrut rəqəmsallaşma dövrünə uyğun yenilikdir və tamamilə yeni əməkdaşlıq növü, rəqəmsal Orta Dəhliz kimi dəyərləndirilib. Prezident İlham Əliyev bildirib ki, bu dəhliz Azərbaycan ilə Mərkəzi Asiya, Cənubi Qafqaz və daha geniş coğrafiyanın ölkələrini birləşdirəcək.

## Qarabağ Bəyannaməsinin prioritetlərindən biri

Azərbaycan və Qazaxıstanın təməlini qoyduğu rəqəmsal Orta Dəhliz platforması həm də Türk dövlətlərinin ortaq maraqlarına xidmət edir. Belə ki, 2024-cü ilin iyul ayında Şuşada Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünün yekununda imzalanan Qarabağ Bəyannaməsinin mühüm prioritetlərindən biri qardaş ölkələr arasında kommunikasiya əlaqələrinin yeni modellərinin və müasir rəqəmsal inkişaf formatlarının yaradılmasıdır. Tərəflər arasında razılaşdırılmış "Rəqəmsal İpək Yolu" layihəsi çərçivəsində Trans-Xəzər Fiber-Optik kabel infrastrukturunun yaradılması və TDT-nin IT infrastrukturlarının bu dəhlizə inteqrasiyası nəzərdə tutulub.

Türk dövlətlərinin yerləşdiyi əlverişli coğrafiya bu bağlantının reallaşması üçün əlverişli imkanlar yaradır. Kabel xəttinə qoşulmaqda maraqlı tərəflərdən biri olan Türkmənistanla danışıqlar müsbət səmərə verib, Özbəkistanla da bu istiqamətdə yekun danışıqlar aparılır. Digər ölkələrlə razılaşmalar əldə edildikdən sonra regionda nəhəng rəqəmsal infrastruktur qurulacaq. Bu baxımdan Fiber-Optik Kabel Xətti müasir rəqəmsal hub olmaqla Türk dövlətləri arasında qabaqcıl kommunikasiyaların mübadiləsi, vahid rəqəmsal platformada koordinasiyanın qurulmasını da öz töhfəsini verəcək. Nəticədə bu, qardaş ölkələr arasında regional ticarət həcmlərinin artması və qarşıdakı illərdə əlavə mal mübadiləsinin, ələlxüsus da rəqəmsal ticarətin genişlənməsini təşviq edəcək. Türk ölkələri öz mövcud rəqəmsal infrastrukturlarını vahid məkanda birləşdirməklə yaxın illərdə "Rəqəmsal İpək Yolu" layihəsi ("Digital Hub") ilə Avropa ilə Asiya arasında rəqəmsal telekommunikasiya dəhlizinin əsas mərkəzinə çevriləcək.




Transxəzər Fiber Optik Kabel Xətti layihəsinin Orta Dəhliz təşəbbüsünə və "Beynəlxalq sülh və rifah üçün Tramp marşrutu" (TRIPP) təşəbbüsünə daxil edilməsi də müzakirə olunur.

## "Digital Hub" TDT-nin inteqrasiyasını gücləndirəcək

"Digital Hub", həmçinin türk dövlətlərinin digər böyük hədəflərindən biri olan ticarətdə texniki maneələrin aradan qaldırılmasını nəzərdə tutan Rəqəmsal İqtisadiyyat üzrə Tərəfdaşlıq Sazişinin (DEPA) tələblərinin icrasını da tezləşdirəcək. Bu saziş ölkələr arasında güzəştli ticarət rejimlərinin tətbiqi üçün ən sərfəli alətlərdən biri hesab edilir. Həmin sazişin ilkin modelini Azərbaycan və Türkiyə öz ticarət rejimlərində 2 ilə yaxındır ki, tətbiq etməkdədir. Belə ki, preferensial (güzəşt) çərçivəsinə əsasən, iki ölkə birbirinə idxal edilən bir sıra məhsulların bəzi kateqoriyalarına gömrük rüsumunun həcmini azaldıb. Ona görə də, bu hüquqi mexanizmin bütün türk dövlətlərinin gömrük-ticarət siyasətinə şamil edilməsi nəzərdə tutulur. Bu baxımdan DEPA sazişi səmərələşdirici layihə kimi üzv ölkələr arasında qarşılıqlı olaraq ticarət rejiminin yumşaldılması və idxal-ixrac mallarının gömrük və tranzit rüsumlarının aşağı salınması istiqamətində də vahid çərçivəni təmin edəcək.

## Kabel xəttinin TRIPP təşəbbüsünə qoşulması gözlənilir

Layihənin reallaşmasında maraqlı tərəf olan beynəlxalq şirkətlər qrupu "NEQSOL Holding"in nümayəndəsi Kirill Rubinski bildirib ki, birgə layihələrin inkişaf perspektivləri böyükdür və beynəlxalq telekommunikasiya şirkətləri bu təşəbbüsü dəstəkləyir. Belə ki, şirkətin rəhbərliyi regionda marşrutlarının genişləndirilməsini və rəqəmsal texnologiyalar sahəsində əməkdaşlığın gücləndirilməsini müzakirə edərkən fibermarşrutun Orta Dəhlizə inteqrasiyasının vacibliyinə toxunublar.

Beləliklə, Azərbaycan və Qazaxıstanın təməlini qoyduğu rəqəmsal layihələr ümumilikdə bütün Türk dövlətləri arasında qarşılıqlı mübadilələrin və birgə iqtisadi layihələrin icrasında təşəbbüskarlığı daha da gücləndirəcək, fiber-optik kabel "Rəqəmsal İpək Yolu" marşrutunun mühüm komponentinə çevriləcək, Asiya-Xəzər-Avropa rəqəmsal dəhlizini formalaşdıracaq.

*E.CƏFƏRLİ*

# Avropada qaz ehtiyatları kritik həddə düşüb

## Aİ-nin Azərbaycan qazına olan ehtiyacı daha da artmaqdadır

Avropa İttifaqı (Aİ) ölkələrində qaz anbarları 2026-2027-ci illərin qış mövsümünə 2013-cü ildən bəri ən aşağı ehtiyat səviyyəsi ilə daxil olmaqdadır. Bu, mövsümi pik tələbatın ödənilməsi üçün regionun qlobal mayeləşdiirilmiş təbii qaz (LNG) tədarükündən asılılığını daha da artırır. Beynəlxalq Enerji Agentliyinin (BEA) "Qlobal qaz təhlükəsizliyinin icmalı 2026" hesabatında qeyd olunur ki, qarşıdan gələn qışın gözləniləndən daha soyuq keçəcəyi, texniki nasazlıqların və ya digər təchizat fasilələrinin yaranacağı təqdirdə Avropa xüsusilə həssas vəziyyətə düşə bilər. Hesabata əsasən, Avropada qaz anbarlarının doluluq səviyyəsinin aşağı olması, Asiya və Cənubi Amerikada LNG idxal edən ölkələrin məhdud saxlama imkanları ilə birlikdə qarşıdakı aylarda çevik şəkildə başqa istiqamətlərə yönləndirilə bilən məhdud sayda LNG yükləri uğrunda rəqabəti gücləndirə və xüsusilə tələbatın yüksək olduğu dövrlərdə spot qiymətlərə (nağd bazar qiymətləri) artım təzyiqi göstərə bilər.


## TAP Avropanın etibarlı enerji körpüsüdür

Avropada qaz ehtiyatlarının aşağı səviyyədə olması bu qitənin yanacağa olan tələbatını əhəmiyyətli dərəcədə artırmaqla, qazın nəql edildiyi ölkələrdən asılılığını da daha aktuallaşdırır. Mövcud proseslər Aİ-nin qaz təchizatında mühüm rol oynayan dövlətlərdən biri kimi Azərbaycandan yanacaq nəqli ehtiyaclarını da artırır.

Azərbaycan 6 ildir ki, Avropa İttifaqı regionunun qaz bazarında tədarükçü kimi iştirak edir. Cənub Qaz Dəhlizinin sonuncu hissəsi olan TAP istifadəyə verildikdən sonra ölkəmiz 2021-ci ildə Avropa regionuna 8 milyard kubmetr qaz ixrac edib. 2022-ci ildə bu rəqəm 3 milyard kubmetr artırılaraq 11 milyard kubmetrə çatdırılıb. 2023-cü ildə isə ixrac 12 milyard kubmetrdən çox olub. 2024-cü ildə qaz ixracı isə 0,5 milyard kubmetr artıb və 12,5 milyard kubmetr təşkil edib. Ötən il bu göstərici 13 milyard kubmetrə yaxınlaşıb.

2026-cı ilin yanvar-sentyabr aylarında Azərbaycanda 37,9 milyard kubmetr təbii qaz hasil edilib ki, onun 8,6 milyard kubmetri Avropanın, 7 milyard kubmetri Türkiyənin, 1,6 milyard kubmetri Gürcüstanın, 1,2 milyard kubmetri isə Suriyanın payına düşüb.

Mövcud ixrac statistikasına əsasən, TAP-la hər ay 1,05 milyard kubmetr qaz nəql edilir və həmin nəql imkanı nəzərə alındıqda ilin sonunda Aİ-yə ixracın həcmi 13 milyardı ötmüş olacaq.




Qaz ixracının artması sözsüz ki, Azərbaycandan yanacaq əldə etmək ölkələrin ixrac coğrafiyasını da böyütməkdədir. İlk ildə Avropanın cəmi 4 ölkəsinə qaz ixrac edən Azərbaycandan hazırda qaz alan Avropa dövlətlərinin sayı 10-u ötüb. Eyni zamanda, növbəti illərdə ixracın daha da artırılması gözlənilir və Xəzərin Azərbaycana aid sektorlardakı yeni qaz yataqlarında hasilatın artırılması işləri davam etdirilir. Proqnozlara əsasən, 2027-2030-cu illərdə ölkəmizin qaz istehsalı 40 faiz artacaq və Avropaya qaz nəql edən TAP kəmərinin illik gücü 20 milyard kubmetrədək artırılacaq.

## Xəzər-Mərkəzi Asiya regionu Aİ üçün zəngin mənbədir

Xəzər regionuna zəngin yanacaq mənbəyi kimi xüsusi önəm verən Avropa İttifaqı məhz Azərbaycanın liderliyi sayəsində bölgənin digər ölkələrini - Türkmənistan, Özbəkistan, Qazaxıstanın da Cənub Qaz Dəhlizinə qoşulmasını və bununla da təkcə bu mənbədən Avropaya illik 100 milyard kubmetrə yaxın qaz nəqlinin əldə olunmasına çalışır. Bunun üçün Cənub Qaz Dəhlizinin yeni xətti - Transxəzər layihəsinin çəkilişi reallığa çevrilir. Transxəzər qaz dəhlizi Mərkəzi Asiya ölkələrinin, xüsusilə də Türkmənistan və Qazaxıstanın zəngin təbii qaz resurslarını Xəzər dənizinin dibi ilə Azərbaycana, buradan isə Cənub Qaz Dəhlizi vasitəsilə birbaşa Avropaya çatdırmağı nəzərdə tutan strateji enerji marşrutudur. Layihənin əsas məqsədi Rusiya və İrandan yan keçməklə Avropanın enerji təhlükəsizliyini təmin etmək və tədarük coğrafiyasını diversifikasiya etməkdir.

Beynəlxalq Enerji Agentliyinin analitikləri hesab edirlər ki, Avropa İttifaqı təbii qaz hasilatına və nəqlinə daha çox sərmayə yatırmalıdır. Əks halda, Avropanı təbii qaz ilə təhlükəsiz şəkildə təmin etmək mümkün olmayacaq. Məsələyə bu kontekstdə yanaşdıqda Transxəzər qaz kəmərinin çəkilişi daha da aktuallaşır..

Transxəzər qaz layihəsi 2026-cı ilin mart ayında Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası nazirlərinin 4-cü iclasında da geniş müzakirə predmeti olub. Aİ-nin enerji komissarlığı Azərbaycanın qaz tədarükünə xüsusi önəm verib. Müzakirələrdə Cənub Qaz Dəhlizinin genişləndirilməsi və Transxəzər qaz kəmərinin çəkilişi üçün irihəcmli sərmayələrin cəlb olunması barədə ilkin anlaşma əldə olunub.

Beləliklə, Aİ-də yanacaq sıxıntılarının artması fonunda Azərbaycan regionda etibarlı və sadiq enerji təminatçısı kimi həm TAP-ın nəql ötürücülüyünü gücləndirərək imkanlarını artıracaq, həm də Transxəzər dəhlizinin tranzit xəttini müəyyən edərək geniş bir coğrafiyada iqtisadi aktora çevriləcək.

***E. CƏFƏRLİ***

# Rəqəmsal dövlət maliyyə nəzarətində yeni mərhələ...

## "Dövlət auditi" informasiya sisteminin iqtisadi və institusional əhəmiyyəti

Azərbaycan Prezidenti İlham Əliyevin 14 avqust 2026-cı il tarixli 768 nömrəli Fərmanı ilə "Dövlət auditi" informasiya sisteminin (DAİS) yaradılması və sistemin fəaliyyətini tənzimləyən Əsasnamənin təsdiqi dövlət maliyyə nəzarətinin rəqəmsal transformasiyasında yeni institusional mərhələ açır. Yeni mexanizm audit üçün zəruri məlumatların müxtəlif dövlət qurumlarından elektron qaydada toplanmasını, qarşılıqlı mübadiləsini, avtomatlaşdırılmış emalını və təhlilini nəzərdə tutur. Bu yanaşma nəzarətin yalnız sənədlərin sonradan yoxlanmasına əsaslanan ənənəvi modeldən daha çevik, məlumat əsaslı və risklərə həssas idarəetmə modelinə doğru inkişafı üçün hüquqi və texnoloji zəmin yaradır.

Müasir dövlət idarəçiliyində rəqəmsallaşma artıq sadəcə xidmətlərin elektron formaya keçirilməsi ilə məhdudlaşmır. Növbəti mərhələ böyük həcmdə idarəetmə məlumatlarının əlaqələndirilməsi, qərarların həmin məlumatlar üzərində qurulması, nəzarət mexanizmlərinin daha operativ işləməsi və resurslardan istifadənin nəticələrinin ölçülə bilməsidir. Məhz bu baxımdan "Dövlət auditi" informasiya sisteminin yaradılması maliyyə nəzarətinin texniki modernləşdirilməsi deyil, dövlət maliyyəsinin idarə edilməsi fəlsəfəsinə təsir göstərə biləcək institusional yenilik kimi qiymətləndirilə bilər. Prezidentin fərmanı DAİS-in yaradılmasını hüquqi qərar səviyyəsində təsbit edir, Əsasnamə isə sistemin hüquqi, təşkilati və texnoloji əsaslarını, iştirakçıların vəzifələrini, məlumat mübadiləsinin qaydalarını və təhlükəsizlik çərçivəsini müəyyənləşdirir.

Fərmanın hüquqi konteksti də əhəmiyyətlidir. Sənəd "Büdcə sistemi haqqında", "Sığorta fəaliyyəti haqqında" və "Hesablama Palatası haqqında" qanunlarda 10 iyul 2026-cı il tarixli 440-VIIQD nömrəli Qanunla edilmiş dəyişikliklərin icrası ilə əlaqədar qəbul olunub. Beləliklə, DAİS ayrıca texnoloji layihə kimi deyil, dövlət maliyyə nəzarətinin hüquqi mexanizmlərində aparılan ardıcıl yenilənmənin tərkib hissəsi kimi formalaşdırılır. Bu yanaşma rəqəmsal sistemin sadəcə informasiya toplayan platforma deyil, qanunvericiliklə müəyyən edilmiş audit səlahiyyətlərinin daha keyfiyyətli icrasına xidmət edən idarəetmə aləti olmasını ön plana çıxarır.

Əsasnaməyə görə, DAİS-in əsas məqsədi Hesablama Palatasının kənar dövlət maliyyə nəzarəti və büdcə prosesində iştirakından irəli gələn fəaliyyətinin keyfiyyətini davamlı artırmaqla dövlət maliyyəsinin idarə olunmasına töhfə verməkdir. Nəzarətin vaxtında aparılması, riskli sahələrin daha erkən müəyyən edilməsi, müxtəlif mənbələrdə olan məlumatların tutuşdurulması, təkrar sorğuların və kağız dövriyyəsinin azalması, analitik imkanların genişlənməsi və qərarların sübut bazasının güclənməsi də keyfiyyət göstəricilərinə daxildir. Əsasnamə DAİS-in funksional məntiqini aydın şəkildə müəyyən edir: sistem rəqəmsal texnologiyalardan və informasiya-kommunikasiya vasitələrindən istifadə etməklə sənədlərin və məlumatların elektron mübadiləsini, avtomatlaşdırılmış emalını, verilənlərin auditini və təhlilini təmin etməlidir. Bu formul dövlət auditinin gələcək inkişaf istiqamətini də göstərir. Rəqəmsal inteqrasiya həmin mərhələlərin mühüm hissəsini standartlaşdırmağa və sürətləndirməyə imkan verir. Məlumatın elektron mübadiləsi təkcə vaxt itkisinin azalması deyil, həm də mərkəzləşdirilmiş və qaydalarla tənzimlənən informasiya mübadiləsi məlumatların mənbəyinin, təqdim olunma vaxtının və dəyişiklik tarixçəsinin daha aydın izlənməsinə şərait yaradır. Bu isə audit sübutlarının keyfiyyəti baxımından mühüm amildir. Avtomatlaşdırılmış emal və verilənlərin təhlili isə nəzarətin məzmununu dəyişə biləcək əsas komponentlərdəndir. Müxtəlif dövrlər üzrə büdcə xərclərinin dinamikası, satınalma qiymətlərində kəskin fərqlər, eyni təchizatçı ilə təkrarlanan müqavilələr, investisiya layihələrinin maliyyə göstəricilərində uyğunsuzluqlar, vergi və gömrük məlumatları arasındakı fərqlər kimi çoxsaylı nümunələr böyük məlumat massivində analitik qaydalar vasitəsilə daha sürətli seçilə bilir. Əsasnaməyə uyğun olaraq məlumatların avtomatlaşdırılmış emalı üçün hüquqi çərçivənin yaradılması gələcəkdə risk indikatorları, analitik panellər və erkən xəbərdarlıq mexanizmlərinin inkişafına imkan verən baza rolunu oynayır.

Əsasnamənin büdcə təşkilatlarının kassa icrası, maliyyə əməliyyatlarının uçotu və alınmış mal, iş və xidmətlərə görə yaranan kreditor borclarının ödənilməsi barədə elektron məlumatların sorğu əsasında əldə edilməsini nəzərdə tutması da əhəmiyyətlidir. Kreditor borcları və kassa icrası büdcə idarəetməsinin cari vəziyyətini xarakterizə edən həssas göstəricilərdir. Bu məlumatların vaxtında müqayisəsi planlaşdırma, icra intizamı və öhdəliklərin idarə olunması barədə daha əsaslandırılmış nəticələrə gəlməyə kömək edir. Ən önəmlisi isə odur ki, sistemin məqsədi nəzarət obyektləri üçün əlavə bürokratik yük yaratmaq deyil, mövcud məlumatların rəqəmsal kanallarla daha sistemli və təhlükəsiz mübadiləsini təmin etməkdir.

Dövlət investisiyaları uzunmüddətli iqtisadi və sosial nəticə yaratmalı olan böyük həcmli resursları əhatə edir. Bu layihələrdə vaxt, dəyər və nəticə arasında əlaqənin qorunması xüsusilə vacibdir. Məlumatların müxtəlif qurumlarda parçalanmış qalması layihənin ümumi maliyyə mənzərəsini görməyi çətinləşdirə bilər. DAİS belə məlumatların audit məqsədləri üçün vahid analitik mühitə gətirilməsini nəzərdə tutur. İnvestisiya layihəsinin qiymətləndirilməsi yalnız ayrılmış vəsaitin qanunauyğun xərclənib-xərclənmədiyi ilə məhdudlaşmamalıdır. Maliyyə nəzarəti baxımından layihənin ilkin dəyəri ilə son dəyəri, icra qrafiki, müqavilə dəyişiklikləri, ödənişlərin mərhələləri, faktiki iş həcmi və son nəticə arasında uyğunsuzluqlar da diqqət mərkəzindədir. DAİS-in satınalma, büdcə, smeta-normativ və qiymətqoyma məlumatlarını bir platformada əlaqələndirmək potensialı belə müqayisələrin daha sistemli aparılması üçün imkan yaradır. Bu, xüsusilə iri infrastruktur layihələrində resurs səmərəliliyinin qiymətləndirilməsinə əlavə analitik dəyər verə bilər.

Layihənin əsas ağırlıq nöqtələrindən biri sistemlərarası inteqrasiyadır. Yəni DAİS-in uğuru ayrıca yeni məlumat bazasının yaradılmasından daha çox mövcud dövlət informasiya ehtiyatlarının düzgün əlaqələndirilməsindən, məlumat formatlarının uyğunlaşdırılmasından və ötürülmənin davamlılığından asılı olacaqdır. Əsasnamədə dövlət satınalmaları ilə bağlı nəzərdə tutulan məlumatların həcmi xüsusilə diqqətəlayiqdir. Satınalma planı, əsas şərtlər toplusunda yer alan şərtlər, yekun protokol, müəyyən hallarda satınalma metodunun tətbiqinə dair razılıqlar, iştirakçıların qiymət təklifləri, elektron qaydada bağlanmış müqavilələr, eləcə də həmin müqavilələr üzrə mal, iş və xidmətlərin hərəkətini təsdiq edən sənədlər DAİS-də audit məqsədləri üçün istifadə edilə biləcək məlumatlar sırasındadır. Bu, satınalma prosesinə yalnız yekun ödəniş nöqtəsindən deyil, planlaşdırmadan müqavilənin icrasına qədər zəncirvari baxış imkanı yaradır.

DAİS-ə smeta-normativ və qiymətqoyma sistemi üzrə göstəricilərin daxil edilməsi də bu baxımdan mühüm yenilikdir. Xüsusilə tikinti, təmir və infrastruktur layihələrində resurs metodu üzrə qiymət hesablamalarının audit məlumatları ilə əlaqələndirilməsi faktiki xərclə normativ və ya əsaslandırılmış xərc arasında fərqləri daha tez müəyyən etməyə kömək edə bilər. Bu imkan dövlət vəsaitinin qənaətlə istifadəsi, layihə dəyərlərinin əsaslandırılması və müqavilə intizamının gücləndirilməsi baxımından perspektivlidir. Çünki DAİS-in mühüm xüsusiyyətlərindən biri audit predmetinə uyğun olaraq müxtəlif iqtisadi informasiya mənbələrini eyni nəzarət məntiqində birləşdirə bilməsidir. Bu məlumatların birgə təhlili maliyyə əməliyyatının müxtəlif mərhələləri arasında uyğunluğun yoxlanması üçün geniş imkanlar açır.

Əsasnamədə dövlət orqanlarının, dövlət mülkiyyətində olan və nəzarət zərfi dövlətə məxsus hüquqi şəxslərin, publik hüquqi şəxslərin və dövlət büdcəsindən maliyyə alan digər təşkilatların bank hesablarına dair məlumatların da müəyyən çərçivədə sistemə ötürülməsi nəzərdə tutulur. Bununla yanaşı torpaq sahəsi, əkin növü, subsidiya məbləği və verilmə tarixi kimi kənd təsərrüfatı subsidiyalarına dair məlumatlar da məlumat dairəsinə daxildir. Belə geniş inteqrasiya maliyyə nəzarətinin iqtisadi fəaliyyətin ayrı-ayrı hissələrinə deyil, bütöv əməliyyat zəncirinə baxmasını mümkün edə bilər. Bununla belə, geniş məlumat dairəsi informasiya təhlükəsizliyi və məqsədyönlü istifadə tələblərinin də eyni dərəcədə ciddi qurulmasını zəruri edir.

Real vaxt rejimində məlumat mübadiləsinin mümkün olmadığı hallar üçün Əsasnamə alternativ mexanizm də müəyyən edir. Belə hallarda sənədlər və məlumatlar aidiyyəti qurumların elektron kabinetləri vasitəsilə, təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq olunmaqla daxil edilir. Bu həll rəqəmsal transformasiyanın mərhələli xarakterini nəzərə alan praktik yanaşmadır. Bütün dövlət informasiya sistemlərinin eyni texnoloji hazırlıq səviyyəsində olması mümkün deyil. Ona görə də həm sistemlərarası avtomatik inteqrasiya, həm də hüquqi qüvvəyə malik elektron təqdimetmə kanalının paralel saxlanılması keçid dövründə prosesin fasiləsizliyini təmin edə bilər.

Əsasnamədə DAİS-in dayanıqlı, mühafizəli və yüksəkötürücülü telekommunikasiya qurğuları və kanalları üzərində fəaliyyət göstərməsi, sistemin və məlumatların ehtiyat nüsxələrinin "Hökumət buludu"nda saxlanılması nəzərdə tutulur. Prezidentin fərmanı da Hesablama Palatasına Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə DAİS-in "Hökumət buludu" konsepsiyasına uyğun yerləşdirilməsi, aparılması və təkmilləşdirilməsi üçün tədbirlər görməyi tövsiyə edir. Bu, məlumatların davamlılığı və fövqəladə hallara hazırlıq baxımından institusional təminat yaradır. Əsasnamədə informasiya təhlükəsizliyi üzrə məsuliyyət bir neçə dövlət qurumu arasında koordinasiya əsasında qurulur. Hesablama Palatası sistemin sahibi və operatoru kimi təhlükəsizliyin təmin edilməsində əsas rol oynayır; Dövlət Təhlükəsizliyi Xidməti, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Elektron Hökumət İnformasiya Sistemi və "Hökumət buludu"na münasibətdə isə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birgə fəaliyyət nəzərdə tutulur. Mövcud və yarana biləcək təhlükələr, təhlükəsizlik insidentləri və müdaxilə cəhdləri barədə dərhal məlumatlandırma, zəruri sorğulara ən geci 24 saat ərzində cavab verilməsi kimi müddəalar təhlükəsizlik idarəçiliyinə operativ reaksiya prinsipini daxil edir.

Sistemin dayanıqlılığı üçün ehtiyat Data Mərkəzində fəaliyyətin davam etdirilməsi mexanizminin nəzərdə tutulması da diqqətəlayiqdir. Rəqəmsal audit məlumatdan daimi istifadə tələb edir; sistemin uzunmüddətli dayanması nəzarət proseslərinə və qərarların vaxtında verilməsinə təsir göstərə bilər. Buna görə biznes davamlılığı, ehtiyat nüsxələrin müntəzəm yoxlanılması, insident ssenarilərinin sınaqdan keçirilməsi və proqram təminatında dəyişikliklərin əvvəlcə istismaraqədərki formalaşma mühitində test edilməsi texniki detal deyil, audit sisteminin etibarlılığının ayrılmaz hissəsidir. Əsasnamənin bu komponentləri ayrıca təsbit etməsi rəqəmsal nəzarətdə texnologiya risklərinin də idarəetmə riskləri kimi qəbul edildiyini göstərir.

Əsasnamədə fərdi məlumatların toplanılması, işlənilməsi və mühafizəsinin "Fərdi məlumatlar haqqında" Qanuna və digər normativ hüquqi aktlara uyğun həyata keçirilməsi açıq şəkildə təsbit edilir. Eyni zamanda əldə olunması məhdudlaşdırılmış informasiya və kritik informasiya infrastrukturu obyektləri üzrə xüsusi hüquqi rejimlərin tətbiqi saxlanılır. Bu, audit səlahiyyətlərinin geniş məlumat çıxışı ilə müşayiət olunmasına baxmayaraq, məlumatdan istifadənin hüquqi məqsəd və təhlükəsizlik çərçivəsində qalmalı olduğunu göstərir.

Əsasnamədə iştirakçıların DAİS-dəki məlumatlardan yalnız xidməti məqsədlər üçün istifadə etməsi və elektron imza vasitələrinin konfidensiallığını təmin etməsi ayrıca öhdəlik kimi göstərilir. İstifadəçi hüquqlarının müəyyənləşdirilməsi də bu balansın vacib hissəsidir. Əsasnamə istifadəçilərə DAİS-dəki açıq məlumatlarla tanış olmaq, qanunda nəzərdə tutulan istisnalar xaricində özləri barədə məlumatları əldə etmək və dəqiqləşdirilməsi üçün müraciət etmək, elektron kabinet vasitəsilə müraciət göndərmək, sistem iştirakçıları ilə elektron sənəd mübadiləsi aparmaq, təkmilləşdirmə təklifləri vermək və hüquqlarının pozulmasından inzibati və ya məhkəmə qaydasında şikayət etmək imkanları verir. Beləliklə, rəqəmsal audit yalnız dövlət qurumlarının məlumat əldə etmə mexanizmi kimi deyil, hüquq və məsuliyyətlərin qarşılıqlı müəyyənləşdirildiyi rəqəmsal institusional mühit kimi qurulur.

DAİS-in yaradılmasının iqtisadi əhəmiyyətini bir neçə səviyyədə qiymətləndirmək olar. Birinci səviyyə əməliyyat səmərəliliyidir. Elektron məlumat mübadiləsi sorğuların hazırlanması, sənədlərin çapı, daşınması, təkrar daxil edilməsi və əl ilə tutuşdurulması kimi vaxt aparan prosesləri azaltmağa şərait yaradır. İkinci səviyyə audit resurslarının daha məqsədli istifadəsidir. Avtomatlaşdırılmış təhlil riskli əməliyyatları ilkin mərhələdə seçə bildiyi halda auditorlar daha çox peşəkar mülahizə tələb edən məsələlərə fokuslana bilərlər. Üçüncü səviyyə isə idarəetmə qərarlarının keyfiyyətidir: audit nəticələri yalnız sonradan pozuntunu təsbit etməyə deyil, sistemli problemlərin səbəblərini göstərməyə və gələcək büdcə qərarlarının təkmilləşdirilməsinə xidmət edir.

DAİS-in hüquqi bazasının yaradılması mühüm başlanğıcdır, lakin rəqəmsal sistemlərin uğuru əsasən tətbiqin keyfiyyətindən asılı olur. Birinci prioritet məlumat standartlarının uyğunlaşdırılmasıdır. Eyni iqtisadi məzmun müxtəlif qurumlarda fərqli kod, təsnifat və formatla saxlanılırsa, avtomatik müqayisə çətinləşir. Məlumat lüğətləri, vahid identifikatorlar, tarix və məbləğ formatları, təşkilat və müqavilə kodları üzrə standartlaşdırma aparılmalıdır. İkinci prioritet məlumat keyfiyyətinə nəzarətdir. Sistemə daxil olan hər məlumatın mənbəyi, yenilənmə vaxtı və cavabdeh qurumu izlənə bilməli, ziddiyyət yarandıqda düzəliş proseduru işləməlidir.

Üçüncü prioritet kadr və analitik bacarıqlardır. Rəqəmsal audit ənənəvi maliyyə və hüquq biliklərinə əlavə olaraq məlumat analitikası, informasiya sistemləri, kibertəhlükəsizlik və proses analizi üzrə kompetensiyalar tələb edir. Auditorun rolu azalmaq əvəzinə daha mürəkkəb olur: sistemin verdiyi siqnalın iqtisadi mahiyyətini qiymətləndirmək, yanlış pozitiv nəticələri ayırmaq, səbəb-nəticə əlaqəsini müəyyən etmək və hüquqi əsaslandırma vermək insan peşəkarlığı tələb edir. Buna görə texnologiyaya qoyulan investisiya ilə yanaşı, insan kapitalına davamlı sərmayə də DAİS-in səmərəliliyinin şərtidir.

Dördüncü prioritet alqoritmik şəffaflıq və audit izi olmalıdır. Avtomatlaşdırılmış risk seçimi tətbiq edilirsə, hansı meyarın nə üçün risk siqnalı yaratdığı auditor üçün izah edilə bilməlidir. Məlumat üzərində edilmiş hər dəyişiklik və istifadəçi əməliyyatı sonradan izlənə bilən audit izi saxlamalıdır. Beşinci prioritet mərhələli inkişafdır. Bütün məlumat mənbələrini eyni vaxtda tam inteqrasiya etmək əvəzinə, yüksək dəyər yaradan sahələr üzrə prioritetləşdirmə, pilot tətbiq, nəticələrin qiymətləndirilməsi və sonra miqyaslandırma daha dayanıqlı nəticə verə bilər. Əsasnamədə dəyişikliklərin istismaraqədərki mühitdə yoxlanılması tələbi də məhz nəzarətli inkişaf yanaşmasını dəstəkləyir.

Əsasnamənin iştirakçılara aktual, tam və etibarlı məlumatları vaxtında təqdim etmək öhdəliyi qoyması məhz bu yeni məsuliyyət modelinin hüquqi ifadəsidir. Müqavilə, ödəniş, satınalma, uçot və nəticə məlumatları arasında əlaqənin düzgün saxlanılması quruma öz fəaliyyətini daha yaxşı təhlil etməyə imkan verir. "Dövlət auditi" informasiya sisteminin yaradılması Azərbaycanda dövlət maliyyə nəzarətinin rəqəmsal əsaslarının gücləndirilməsi baxımından əhəmiyyətli institusional addımdır. Rəqəmsallaşmada məqsəd daha keyfiyyətli dövlət maliyyə idarəetməsi, resurslardan səmərəli istifadə və hesabatlılığın gücləndirilməsidir.



***Amal HƏSƏNLİ,***
***Azərbaycan Memarlıq və İnşaat Universitetinin baş müəllimi, i.ü.f.d.***

# Körfəzdə vəziyyət yenidən gərginləşir

## 47 il əvvəl başlamış ABŞ-İran qarşıdurması yeni mərhələyə qədəm qoya bilər

Beynəlxalq aləm bu ilin fevralından start götürən ABŞ-İran müharibəsinin dayandırılması istiqamətində fəaliyyətin davamını izlərkən, sükut yenidən pozulub. Belə ki, ABŞ qüvvələri Hörmüz boğazında yerləşən İranın Qeşm adasına hava zərbələri endirib. Bu barədə "The Wall Street Journal" qəzeti ABŞ rəsmilərinə istinadla məlumat yayıb. Nəşrin məlumatına görə, adada baş verən partlayışlar barədə daha əvvəl İranın IRNA agentliyi məlumat yayıb. ABŞ rəsmiləri zərbələri müdafiə xarakterli addım kimi qiymətləndirərək məqsədin İranın Hörmüz boğazında ticarət gəmilərinə hücum imkanlarını məhdudlaşdırmaq olduğunu bildiriblər. Məlumata görə, ABŞ tərəfi genişmiqyaslı hərbi əməliyyatların bərpası təəssüratı yaratmamaq üçün zərbələr barədə rəsmi açıqlama verməyib. ABŞ Mərkəzi Komandanlığı da hadisə ilə bağlı hələlik məlumat yaymayıb. Qeyd edək ki, İran İslam İnqilabı Keşikçiləri Korpusu daha əvvəl Hörmüz boğazı yaxınlığında ABŞ-a məxsus pilotsuz uçuş aparatlarının vurulduğunu və ələ keçirildiyini iddia edib.

### Danışıqlar davam edir

Prosesin danışıqlar yolu ilə həlli istiqamətində müəyyən addımlar davam etdirilməkdədir. Qətərli vasitəçilər ABŞ ilə mümkün razılaşmanı müzakirə etmək məqsədilə İrana səfər ediblər. Bu barədə "Reuters" agentliyi mənbəyə istinadla xəbər yayıb. Məlumata görə, Qətər nümayəndələri İranın xarici işlər naziri Abbas Əraqçi ilə görüşərək Vaşinqton və Tehran arasında müzakirə olunan saziş layihəsini nəzərdən keçirəcəklər.

Mənbənin bildirdiyinə görə, tərəflər arasında sənədlə bağlı danışıqlar son səkkiz gündür davam edir. Qeyd edək ki, İran nümayəndə heyəti noyabrın 1-də məsləhətləşmələrdə iştirak etmək üçün olduğu Dohadan ayrılıb. "Reuters"in məlumatına görə, tərəflər saziş layihəsi ilə bağlı rəyləri nəzərdən keçirir və əlavə görüşlər istisna edilmir.



### Tramp hələ gözləyir...

Qeşm adasına hücumdan əvvəl isə Vaşinqton da hərbi əməliyyatların hələ başlamayacağını bildirmişdi. Belə ki, ABŞ Prezidenti Donald Tramp İranla hərbi əməliyyatların yenidən başlanması barədə qərar qəbul etməyə tələsmədiyini açıqlamışdı. Tramp bu barədə "Axios" nəşrinə müsahibəsində danışıb. "Bu və ya digər şəkildə nəsə edəcəyik, lakin tələsmirik. Biz onları maliyyə baxımından iflic etmişik. Onların nə pulu, nə benzini var, əhalisi isə bu vəziyyətdən getdikcə daha çox yorulur", - deyə ABŞ Prezidenti bildirib. Tramp Vaşinqtonun Tehranla danışıqları davam etdirdiyini və diplomatik razılaşma imkanlarını nəzərdən keçirdiyini vurğulayıb. "Biz onlarla danışırıq. Hər şey yaxşı gedir. Problem ondadır ki, onlar prosesi uzatmağa çalışırlar. İran tərəfinin təcili razılaşma əldə etmək istəyi düşündüyünüzdən daha azdır. Bununla belə, onlar əvvəlkindən daha çox razılaşma əldə etmək istəyirlər", - deyə Tramp qeyd edib.

### Vens hərbi əməliyyatların başlamasını istisna etmir

Vitse-prezident Cey. Di. Vens isə ABŞ və İran arasında münaqişənin başa çatdırılması ilə bağlı danışıqlarda müəyyən irəliləyiş əldə olunduğunu bildirib. Onun sözlərinə görə, tərəflər arasında bir sıra müsbət məsləhətləşmələr aparılıb və danışıqların davam etdirilməsi nəzərdə tutulur. Vens ABŞ Prezidenti Donald Trampın da diplomatik həll perspektivlərinə nikbin yanaşdığını qeyd edib. Bununla yanaşı, vitse-prezident İran tərəfinin mövqeyinin bəzən gözlənilməz olduğunu vurğulayıb və Tehrana qarşı hərbi əməliyyatların yenidən başlanması ehtimalının istisna edilmədiyini bildirib. O əlavə edib ki, ABŞ administrasiyası İranla mümkün razılaşmanın əldə olunması üçün konkret vaxt çərçivəsi müəyyən etməyib. Onun sözlərinə görə, Vaşinqtonun əsas tələbi İranın nüvə proqramının tamamilə dayandırılması və gələcəkdə bərpa edilməməsinə zəmanət verilməsidir. Vens qeyd edib ki, bu məsələ ABŞ-ın Tehranla danışıqlarda başlıca narahatlığı olaraq qalır.



### İran Avropanı hədələyir

ABŞ Prezidenti Donald Tramp İrana qarşı hərbi əməliyyata xərclənən 30 milyard dolları "sadəcə xırda bir şey" hesab etdiyini söyləyib. "Çox axmaq bir konqresmenin İranla müharibəyə xərclənən 30 milyard dollar haqqında danışdığını dinlədim. Bu, sadəcə xırda bir şeydir, çünki biz Venesuelada dəfələrlə çox pul qazandıq", - deyə dövlət başçısı Fox News-da bildirib.

Amerika liderinin sözlərinə görə, ABŞ İranla münaqişədə güc mövqeyindən çıxış edir və iki tərəfin razılığa gələ bilməsi üçün "çox yaxşı bir şans var".

İran isə öz növbəsində Avropadakı ABŞ hərbi obyektlərinə zərbələr endirməklə qarşı tərəfi hədələyir. İran parlamentinin üzvü Mənuçöhr Müttəki Avropaya Tehrana qarşı müharibədə iştirak etməmək barədə xəbərdarlıq ünvanlayıb. Məclis üzvü Britaniya, Almaniya, İtaliya və Portuqaliya kimi Qərb ölkələrini İrana qarşı hərbi əməliyyatlar aparan Amerika qırıcı təyyarələrinə öz hərbi bazalarını verməkdə günahlandırıb.



### 47 il öncə noyabrda...

ABŞ-İran gərginliyinin məhz noyabrda yenidən artması tarixi bir faktı yenidən yada salıb. Belə ki, 1979-1981-ci illərdə ABŞ ilə İran arasındakı baş verən və tarixə "İran girov böhranı" kimi düşən hadisə də məhz noyabrda baş vermişdi. 47 il öncə İranda baş vermiş İslam İnqilabının ardından hakimiyyət müvəqqəti İran hökumətinin əlinə keçmişdi. 1979-cu il noyabrın 4-də Müsəlman Tələbə Təşkilatı ABŞ-ın Tehrandakı səfirliyini zəbt etdi. 66 amerikalı diplomat girov götürüldü - altı amerikalı diplomat isə qaça bildi. Sonradan həmin diplomatlar Kanada səfirliyinin köməyi ilə İrandan çıxarıldılar. ABŞ səfirliyinə hücum edənlər girovlar qarşılığında Nyu-York xəstəxanasında müalicə olunan devrilmiş şah Məhəmməd Rza Pəhləvinin İrana təhvil verilməsini tələb edirdilər. ABŞ prezidenti Cimmi Karter hücumu beynəlxalq qanunların pozulması və terror aktı kimi qiymətləndirərək İrandan Amerika səfirliyini və saxlanılan diplomatları dərhal azad etməyi tələb etdi. Ayətullah Xomeyninin rəhbərlik etdiyi hökumət ABŞ-ın tələbini rədd etdi və səfirliyi ələ keçirən radikalları dəstəklədi. 1979-cu il noyabrın 19-20-də 13 girov - qadınlar və səfirliyin qaradərili əməkdaşları azad olundu. Digər girovların azad edilməsi istiqamətində keçirilən hərbi əməliyyat isə uğursuzluqla nəticələndi - 1980-ci il aprelin 24-də başlayan əməliyyatda hərbi helikopter aerodromda dayanan təyyarə ilə toqquşdu, səkkiz amerikalı hərbçi həlak oldu. 1980-ci ilin yazında uğursuz girovların xilas edilməsi əməliyyatı və münaqişənin həll olunmaması ABŞ prezidenti Cimmi Karterin reputasiyasına mənfi təsir göstərdi və onun 1980-ci il seçkilərində sarsıdıcı məğlubiyyətinin səbəblərindən birinə çevrildi. 1980-ci il iyulun 27-də Məhəmməd Rza Pəhləvinin ölümü və sentyabrda başlayan İran-İraq müharibəsi İran hökumətini ABŞ-la danışıqlara başlamağa sövq etdi. Bu işdə Əlcəzair və Böyük Britaniya vasitəçi kimi çıxış etdilər. Girovlar azad edilsə də, ABŞ İranın bank hesablarına qoyulan qadağanı götürmədi və ticarət sanksiyalarını ləğv etmədi. 1981-ci il yanvarın 20-də girovluqda qalan 52 diplomat 444 gün həbsdə saxlandıqdan sonra sərbəst buraxıldı. 2016-cı ildə isə girov böhranının ABŞ-dan olan qurbanları çətin sınaqdan 36 il sonra kompensasiya aldılar. 53 vətəndaş və ya onların varisləri üçün 4,4 milyon dollar məbləğində kompensasiya ödənlidi...

***P.İSMAYILOV***

# Makron prezidentlik postundan necə yola salınır?

Gələn il Fransada prezident seçkiləri keçiriləcək. Artıq tarix də müəyyənləşib. Seçkilərin birinci turu aprelin 18-ə, ikinci turu isə mayın 2-nə təyin olunub.

Seçkilərin nəticəsindən asılı olmayaraq, Yelisey Sarayının sahibinin dəyişəcəyi bəri başdan bəllidir. Hazırkı prezident Emmanuel Makron ardıcıl iki müddət (2018-ci ildən etibarən) bu postu tutduğuna görə konstitusiya onun üçüncü dəfə seçkilərə qatılmasına hüquqi əsas yaratmır.

Beləliklə, Makronun dövlət başçısı vəzifəsindən məcburi şəkildə getməsinə bir ildən də az vaxt qalır. Sual belədir: Bəs Makron prezidentlik postundan necə yola salınır? Əlbətdə, Makronun özü çox istərdi ki, Yelisey Sarayı onu təmtəraqla yola salsın və adı Fransa tarixində sələflərinin ənənələrini davam etdirən yenilikçi, islahatçı, tarixdən gələn demokratik prinsiplərə sadiqlik göstərən prezident kimi qalsın. Fəqət, son vaxtlarda ölkənin ictimai-siyasi həyatında müşahidə edilən proseslər, iqtisadi tənəzzül, sosial gərginlik, beynəlxalq nüfuzun itirilməsi və bütün bunların nəticəsi olaraq Parisdə, əyalətlərdə baş verənlər Makronun xəyallarını suya salaraq əridib. İndi o, çətin seçim qarşısındadır - ya impiçment baş verməli, vaxtından əvvəl postundan qovulmalıdır, ya da ki, Yelisey Sarayında mövcudluğunun son aylarını Fransa cəmiyyətinə zor tətbiq etməklə qoruyub saxlamalıdır. Makron ikinci yolu seçib.

### Bütün ölkəni bürüyən etirazlar

Fransa dünyada inqilablar ölkəsi kimi tanınır. Müxtəlif vaxtlarda baş verən inqilablar Fransa tarixində yeni bir başlanğıc yaradıb. Son vaxtlarda Parisi, əyalətləri bürüyən etirazlar ölkədə yeni inqilab dalğasının başlaya biləcəyindən xəbər verir. Şagirdlərin, tələbələrin küçələrə axışması ilə start götürən etirazlar artıq kütləvi hal alıb. Müxtəlif sahələri təmsil edən insanlar gecə-gündüz küçələrdədirlər. İri həmkarlar ittifaqları tətilləri dəstəkləyir və kütləvi aksiyalara çağırışlar edirlər.

Ölkə üzrə keçirilən son kütləvi etiraz aksiyalarında iştirakçıların sayı ilə bağlı həmkarlar ittifaqları və Daxili İşlər Nazirliyi fərqli rəqəmlər açıqlayıb. Gənclər təşkilatlarını və həmkarlar ittifaqlarını birləşdirən qurumun məlumatına görə, ölkə üzrə son nümayişlərə gün ərzində təxminən 500 min nəfər qatılıb. Onlardan 200 mini Parisdə küçələrə çıxıb.

Daxili İşlər Nazirliyi isə ölkə üzrə 320, paytaxtda 70 min nəfərin nümayişlərə qatıldığını bildirib. Parisdə nümayişin əsas hissəsi sakit keçsə də, yürüşün sonunda qarşıdurmalar baş verib. Daxili İşlər Nazirliyinin məlumatına görə, 200-300 nəfərlik qrupla polis arasında toqquşmalar zamanı partlayıcı qurğu polis əməkdaşlarından birinə dəyib.

Fransa Tələbələrinin Milli İttifaqı etiraz aksiyalarının davam etdiriləcəyini bildirib. Təşkilat universitetlərdə təşkilatlanmağa, bundan sonra isə ölkə üzrə universitet və liseylərin blokadaya alınmasına çağırıb. Lisey şagirdləri və tələbə birlikləri də qarşıdakı günlərdə təhsil müəssisələrində etiraz aksiyalarının keçirilməsini gündəmə gətirib. "Sarı jiletlilər" hərəkatı noyabrın 6-da və 7-də etirazların davam etdirilməsinə çağırıb. Bundan əvvəl, noyabrın 5-də həmkarlar ittifaqlarının nümayişlər keçirməsi planlaşdırılır.

Öz növbəsində hökumət aksiyaların qarşısını almaq üçün güc strukturlarını hazır vəziyyətə gətirib. Oktyabrın 31-də keçirilən nümayişlər zamanı küçə və meydanlarda etirazçılara qarşı 70 min polis və jandarm səfərbər edilib. Güc strukturlarının nümayəndələrinə geniş səlahiyyətlər verilib. Onlar nümayişçilərin qarşısını kəsmək məqsədilə su şırnaqlarından, rezin güllələrdən istifadə edirlər, hətta etirazçıları təpik altına salıb döyməkdən belə çəkinmirlər. Küçələrə öyrədilmiş itlər buraxılıb - onlar etirazçıları dişləyərək geri çəkilməyə məcbur edirlər. Təkcə son aksiyalarda Fransada hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən saxlanılan nümayişçilərin sayı 511 nəfərə yüksəlib. Bildirilib ki, oktyabrın 31-də keçirilən etirazlar həmin ayın 17-də və 24-də təşkil olunan genişmiqyaslı nümayişlərin davamı olub. Bu aksiyalar bir sıra şəhərlərdə polislə toqquşmalar və mağazaların talan edilməsi ilə müşayiət olunub. Bir neçə şəhərdə polislə etirazçılar arasında baş verən şiddətli toqquşmalar nəticəsində azı 60 nümayişçi yaralanıb. Həmçinin son toqquşmalarda 18 polisin yaralandığı bildirilir. Lakin bu statistika dəqiq deyil. Belə ki, təkcə Marsel polis prefekturasının hesabatına görə, şəhərdəki iğtişaşlar və talanlar zamanı 19 asayiş keşikçisi yaralanıb. Parisdə isə etirazçıların yandırıcı maddələr atması nəticəsində bir neçə jandarm əməkdaşının ciddi yanıq xəsarətləri aldığı bildirilir.



Verilən məlumatlardan da göründüyü kimi, artıq Fransada proseslər nəzarətdən çıxıb və getdikcə daha çox dərəcədə idarəolunmaz hala gəlir. Bəs cəmiyyətin müxtəlif təbəqələrini küçələrə çıxmağa sövq edən amillər hansılardır?

### Kütləvi narazılığın əsas səbəbi - Makronun yarıtmaz siyasəti

Makronun 2018-ci ildən başlayan prezidentliyi dövründə Fransa bütün sahələrdə deqradasiyaya uğrayıb - həm demokratiyadan uzaqlaşıb, həm də daxili və xarici siyasətdə uğursuzluqlarla üzləşib ki, bu da kütləvi narazılığa yol açıb. Yerli ekspertlər o qənaəti bölüşürlər ki, bugünkü etirazların mənbəyini məhz Makronun yürütdüyü yanlış siyasətdə axtarmaq lazımdır.



Makronun sərişтəsiz siyasəti iqtisadiyyatda son dərəcə ağır vəziyyətin yaranması ilə nəticələnib. Fransa iqtisadiyyatının ən narahatedici göstəricilərindən biri dövlət borcunun sürətlə artmasıdır. Fransa Milli Statistika və İqtisadi Tədqiqatlar İnstitutunun (INSEE) məlumatlarına əsasən, 2025-ci ilin sonuna dövlət borcu 3,46 trilyon avroya çatıb. Bu, ölkənin ümumi daxili məhsulunun (ÜDM) 115,6 faizini təşkil edib. Büdcə kəsiri isə 152,5 milyard avroya, yaxud ÜDM-in 5,1 faizinə bərabər olub. Təkcə 2025-ci il ərzində dövlət borcu daha 154,4 milyard avro artıb.

Bu rəqəmlər Fransanın dövlət xərclərini maliyyələşdirmək üçün hələ də böyük həcmdə borclanmağa məcbur olduğunu göstərir. Eyni zamanda, borca xidmət xərclərinin artması dövlət büdcəsinə əlavə yük yaradır.

Avropa Komissiyasının proqnozlarına görə, dövlət borcunun ÜDM-ə nisbəti 2026-cı ildə 118,1 faizə çatacaq, 2027-ci ildə isə 120 faizi ötəcək. Mövcud siyasət davam edərsə, 2027-ci ildə büdcə kəsirinin ÜDM-in 5,7 faizinə yüksələcəyi gözlənilir. Belə olan halda Fransa rəhbərliyinə ünvanlanan əsas sual ortaya çıxır: Makronun prezidentliyi dövründə büdcə kəsirinin davamlı şəkildə azaldılmasına niyə nail olunmayıb?

Fransa iqtisadiyyatının problemi yalnız dövlət borcunun həcmi və büdcə kəsiri ilə məhdudlaşmır. İqtisadi artım tempinin zəif olması da vəziyyəti çətinləşdirən əsas amillərdəndir. Avropa Komissiyasının proqnozuna görə, 2027-ci ildə Fransada ÜDM-in artımının 1,1 faiz, inflyasiyanın isə 2,5 faiz təşkil edəcəyi gözlənilir.

### Verilən səhv siyasi qərarlar və permanent hökumət böhranları

Makronun siyasi sərişтəsizliyi və bu üzdən aldığı səhv qərarlar ölkənin idarəolunmaz vəziyyətə düşməsinin digər səbəbidir. Onun yanlış siyasi qərarlarından biri 2024-cü ildə növbədənkənar parlament seçkilərinin keçirilməsi olub. Avropa Parlamentinə seçkilərdə prezidentin nəzarətində olan mərkəzçi koalisiyanın məğlubiyyətindən sonra Makron Milli Assambleyaya növbədənkənar seçkilər təyin etdi. O, bu addımla yeni parlament çoxluğu əldə etməyi və öz siyasətinin siyasi dayaqlarını möhkəmləndirməyi hədəfləyirdi. Lakin nəticə gözlənilənin əksinə oldu. Seçkilərdən sonra Fransa parlamentində üç əsas siyasi düşərgə formalaşdı: sol qüvvələr, prezidentin mərkəzçi siyasi bloku və sağçı- millətçi qüvvələr.

Bununla da Makron parlamentdə siyasi dəstəyini itirdi. Xatırladaq ki, son illərdə Fransada ardıcıl hökumət böhranları yaşanır. Verdiyi qərarların parlamentdə təsdiqinə nail ola bilməyən Makron hətta konstitusiyanın ziddinə addımlar atmaq məcburiyyətində qalır ki, bunun da nəticəsində ona qarşı siyasi qüvvələrin təzyiqləri daha da artır.

### Ölkə sosial gərginlik girdabında

Verilən səhv qərarlar, iqtisadiyyatdakı tənəzzül meylləri özünü sosial sferada da göstərir. Fransada 2023-cü ildə uğursuz pensiya islahatı aparılıb. Yelisey Sarayı bu addımı əhalinin yaşlanması fonunda pensiya sisteminin maliyyə dayanıqlığını qorumaq zərurəti ilə əsaslandırırdı.

Lakin islahat ciddi siyasi mübahisələrə səbəb oldu, etirazlar baş qaldırdı. Parlament pensiya islahatı təşəbbüsünü dəstəkləmədi. Belə olan halda hökumət Fransa Konstitusiyasının 49.3-cü maddəsindən istifadə edərək qanun layihəsini Milli Assambleyada ayrıca səsverməyə çıxarmadan qəbul etdi. Bu mexanizm hökumətə qarşı etimadsızlıq votumu uğursuz olduğu halda qanun layihəsinin qəbul edilməsinə imkan verir. Nəticədə ölkə üzrə kütləvi etirazlar və tətillər başladı. Bu proses Makronun idarəçilik üslubu ətrafında müzakirələri daha da gücləndirdi.

Uğursuz siyasətin nəticəsi olaraq Fransada əhalinin gəlir imkanları əhəmiyyətli dərəcədə azalıb. Ötən il ölkədə evsiz və yaşayış yeri olmayan 927 nəfər həyatını itirib. Bu barədə "Les Morts de la rue" assosiasiyasının illik hesabatında bildirilir. Hesabata əsasən, ölənlərin orta yaşı 49 olub, onların 83 faizi kişilərdir. Qurbanlardan 306-sı küçələrdə yaşayıb, 264-ü sığınacaqlarda məskunlaşıb. Daha 357 nəfərin isə harada gecələdiyi məlum deyil. Ölənlər arasında 15 yaşdan kiçik 20 uşaq da var. Hesabatda 148 zorakı ölüm faktı qeydə alınıb. Assosiasiyanın məlumatına görə, evsizlərin ölüm sayı 2012-ci illə müqayisədə 2,2 dəfə artıb.

Hesabat müəllifləri bu ölümləri dərin sosial böhranın nəticəsi kimi qiymətləndirərək onların qaçılmaz olmadığını, yoxsulluq və sosial müdafiə sahəsindəki siyasi və ictimai qərarlarla əlaqəli olduğunu bildirirlər.

Bu gün Fransada cərəyan edən proseslər, iqtisadiyyatdakı tənəzzül, siyasi böhran, xalqın etirazları "Makron prezidentlik postundan necə yola salınır" sualının ən konkret cavabıdır...

***Mübariz ABDULLAYEV***

04 noyabr 2026-cı il, çərşənbə № 202 (7269)

# İRƏVAN DÖVLƏT PEDAQOJİ İNSTİTUTUNUN AZƏRBAYCAN ŞÖBƏSİNİN YARANMASI, FƏALİYYƏTİ VƏ TALEYİ


Azərbaycan elmi-pedaqoji fikir sferasında İrəvan Azərbaycanlı Pedaqoji Texnikumu və İrəvan Dövlət Pedaqoji İnstitutunun özünəməxsus yeri vardır. Bu təhsil ocaqları tariximizdə müəyyən izlər qoymuşdur. Azərbaycan elminin və təhsilinin inkişafında bu təhsil müəssisələrinin məzunlarının da müstəsna rolu olmuşdur.

Qərbi Azərbaycanın elmi potensialının mayasını təşkil edən, deportasiyaya uğrayaraq 1948-ci ildə Bakıya köçürülməklə fəaliyyətinə son qoyulan İrəvan Pedaqoji İnstitutu nəzdindəki Azərbaycan bölməsi uzun və keşməkeşli bir yol keçmişdir.

1924-1925-ci dərs ilində İrəvan Dövlət Universitetinin nəzdində azərbaycanlılar üçün ilk dəfə türk işçi fakültəsi açıldı. İlk ildə burada cəmi 18 tələbə oxumuşdu. Bu fakültə 15 il fəaliyyət göstərə bildi, on beş il davam edən bu fakültədə ilk pedaqoji kadrlar hazırlandı. Azərbaycan dilində ədəbiyyatın yoxluğu, mütəxəssis kadrların çatışmaması tədrisin keyfiyyətində öz təsirini göstərirdi.

1936-1937-ci dərs ilində İrəvan Dövlət Qiyabi Pedaqoji İnstitutu da təsis edildi. "Beynəlmiləlçilik" siyasətinə müvafiq olaraq onun nəzdində türk şöbəsi təşkil edilmişdi. Lakin qəbul qaydalarına, xüsusən azərbaycanlılarla bağlı qoyulan bürokratik tələblər sənəd qəbulunu ləngidirdi. Axırda bu bölmədə yerlər boş qalırdı. Ona görə də elə birinci il Türk məktəblərində coğrafiya, tarix müəllimlərinə olan böyük ehtiyac nəzərə alınaraq qiyabi institutun bu bölməsinin coğrafiya və tarix şöbələrinə sənəd qəbulu işi aprelin 10-dək uzadılmışdı. İlbəil yaranan kəm-kəsirin hesabına Azərbaycan məktəblərinin kadr çatışmazlığı o yerə çatdırılmışdı ki, məktəblər bağlanmaq təhlükəsi ilə üzləşirdi, ona görə də əlavə tədbirlər görmək lazım gəlirdi. 1937-ci ildə İrəvanda İkiillik Müəllimlər İnstitutunun Azərbaycan şöbəsi də açılaraq bir müddət fəaliyyət göstərdi. Burada 20 nəfərin əyani, 20 nəfərin qiyabi təhsil alması planlaşdırılmışdı. Tədris prosesinin səmərəli təşkilinə imkan olmadığı üçün müəllimlər əsasən Bakıdan dəvət olunurdu. Dərsliklər də Bakıdan gətirilirdi. Lakin ehtiyac yalnız bununla bitmirdi. Azərbaycanlılara lazımi şərait də yaradılmırdı.

Böyük Vətən müharibəsi illərində Qərbi Azərbaycanda hökumətin yuxarı dairələrində oturan millətçi-şovinistlərin əl-qolu nisbətən bağlanmışdı, onlar müvəqqəti olaraq öz qınlarına çəkilmişdilər. Ona görə də bir sıra görüntülərlə öz çirkin niyyətlərini ört-basdır edirdilər. Həmin dövrdə Azərbaycan dilli mətbuatda da kadr hazırlığı kəskinliyi ilə qoyulur, məktəblərin kadrsız qalmaması üçün təcili tədbirlər görmək təklifləri irəli sürülürdü. Məhz bunların təsiri idi ki, İrəvan Dövlət Pedaqoji İnstitutunun 4 fakültəsinin Azərbaycan şöbəsində dil-ədəbiyyat, fizika-riyaziyyat, tarix-coğrafiya müəllimləri hazırlanırdı. Onlar buna mane olsa da, bu prosesi dayandırmağa qabil deyildilər. Azərbaycanlı ziyalılar isə bu yolda öz səylərini davam etdirirdilər.



*Cəlal Zəngi,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

Uzun müddət Azərbaycan Pedaqoji İnstitutunda çalışmış Fərhad Fərhadov 1942-1943-cü illərdə müharibədən qayıtdıqdan sonra həm İrəvan Pedaqoji Texnikumunda, həm də 1944-cü ildən başlayaraq İrəvan Pedaqoji İnstitutunda dərs deməyə başlamışdır. O, 1945-ci ildə İrəvanda "Qədim və orta əsrlər ədəbiyyatına dair oçerklər" kitabının nəşrinə də nail olmuşdu. Lakin Mərkəzi hökumətin əli ilə həyata keçirilən azərbaycanlıların "mədəni deportasiyası" 1948-ci ildə onun da İrəvanı tərk etməsilə nəticələnmişdir. Azərbaycan bölməsinin cəfakeşlərindən olan professor Rəhim Allahverdiyev (1907-1973) 1945-ci ildən deportasiyaya qədər İrəvan Dövlət Pedaqoji İnstitutunda dərs aparmışdır.

Ermənilərin azərbaycanlıları sıxışdırmalarının nəticəsi olaraq, deportasiya ərəfəsində, yəni 1947-ci ildə İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinin 4 fakültəsində cəmi 20 tələbə oxuyurdu. Bu elə vaxt idi ki, azərbaycanlıların deportasiyasının yeni dalğası gözlənilirdi. Elə bu zaman İrəvan Dövlət Pedaqoji İnstitutunun Elmi Şurası Azərbaycan şöbəsinin işini müzakirəyə çıxararaq, onları bir qədər də sıxışdırdı. 1947-ci il 22 iyunda bu barədə qəbul edilən qərara əsasən Azərbaycan şöbəsi erməni şöbələri ilə birləşdirildi. Azərbaycan şöbəsinin dekanları isə erməni bölməsi dekanlarının müavini vəzifəsinə keçirildi. Onların müstəqil qərar qəbul etmək səlahiyyəti əllərindən alındı. Bununla da bu fakültələrdə milli-mənəvi dəyərlərə ağır zərbə vuruldu. Getdikcə Azərbaycan şöbəsində kadr potensialı daha da zəifləyirdi. İnstitutun Azərbaycan şöbəsində dərs deyən müəllimlərin çoxu əsasən İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunda da çalışırdılar. İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan şöbəsindən fərqli olaraq İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunda sanballı kadr potensialı formalaşmışdı. Onu da qeyd edək ki, sovet hakimiyyətinin ilk illərində Ermənistanda da Azərbaycan dilində təhsil ocaqları şəbəkəsinin genişlənməsi orada təhsil alanların sayının sürətlə artmasına təkan vermişdi. Sovet hakimiyyətinin ilk illərində Qərbi Azərbaycanda 1922-1923-cü illərdə 36, 1924-cü ildə 62, 1929-1930-cu illərdə 112, 1931-ci ildə isə 245 Azərbaycan məktəbi fəaliyyət göstərirdi ki, bunlardan da 45-i ancaq İrəvan qəzasında idi. Elə bu sürətli inkişaf da ali təhsilin pedaqoji kadrlar problemini zəruri edirdi. Ali təhsilli müəllimlər nəinki çatışmırdı, onlar yox dərəcəsində idi. Bu məsələ 1922-ci ildə Ermənistan Xalq Maarif Komissarlığı nəzdində "Azlıqda qalan millətlər" şöbəsinin sənədlərində də öz əksini tapmışdı. Müəllim kadrlarının yerləşdirilməsi məsələsini də məhz bu şöbə qaldırmışdı. Ona görə də məktəblərin müəllim kadrları ilə təmin olunması üçün ilk vaxtlar İrəvanda xüsusi kurslar təşkil edildi. Bu hazırlıq kurslarını birinci il 30 azərbaycanlı müəllim bitirsə də, məktəblərin artmaqda olan tələbatı bununla bitmirdi. Bu məqsədlə İrəvandan Bakıya 1923-cü ildə 16, 1925-ci ildə isə 38 nəfər müəllim ali təhsil müəssisələrinə göndərilir. Onların ilk nümayəndələri olan Zəhra Abbasova, Tacirə Bağırova, Mamed Həsənov və bu kimi gənclər ali təhsil aldıqdan sonra İrəvana qayıdaraq bu prosesə qoşulmuşdular.


Lakin ali təhsil problemi yenə də öz həllini tapa bilmirdi. Müəllim çatışmazlığı əldə bəhanə tutularaq çox vaxt türk məktəblərinə qərəzli şəkildə erməni mənşəli direktorlar təyin edilirdi, bir çox hallarda Azərbaycan dilini bilməyən ermənilər azərbaycanlılara dərs deyir, onlara rəhbərlik edirdilər. Bu azmış kimi, müəllim kadrlarına ciddi ehtiyac olduğu halda, yüzlərlə azərbaycanlı tələbəyə "bəy", "xan", "mülkədar", "qolçomaq", "kulak" və s. övladı damğası vuraraq pedaqoji təhsil müəssisələrindən xaric edirdilər. Təkcə 1930-1935-ci illərdə 102 nəfərdən artıq azərbaycanlı tələbə və müəllim bu adlarla repressiyaya məruz qalmışdılar.

Azərbaycanlıların savadlanmasının qarşısını almaq üçün pedaqoji kadr hazırlığına hər cür maneçilik törədilsə də, onlar öz fəaliyyətlərini davam etdirdilər. Məsələn, 1940-cı ildə İrəvan Dövlət Pedaqoji İnstitutunun nəzdində Azərbaycan şöbəsi və 2 Azərbaycan texnikumu (pedaqoji və kənd təsərrüfatı texnikumları) fəaliyyət göstərirdi.

Azərbaycanın bir çox görkəmli ziyalıları Mir Cəlal, Səməd Vurğun, Mikayıl Rəfili, Süleyman Rüstəm, Nigar Rəfibəyli, Məmməd Aslan və başqaları müxtəlif vaxtlarda İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinin qonağı olmuşlar.

Ümumiyyətlə, Ermənistanın müvafiq qurumları İrəvanda azərbaycanlıların ali təhsil alması üçün müstəqil ali təhsil ocağının yaranmasına imkan verməmişlər. Bu işə 1935-ci ildə Gümrüdə və Dilicanda təşkil edilmiş ikiillik qiyabi pedaqoji institutların bir qədər köməyi dəymişdi. Buraya Bakıdan dəvət edilmiş professor Əhməd Seyidov pedaqogikadan, Muxtar Qasımov marksizm-leninizmdən, Məmmədağa Şirəliyev Azərbaycan dilindən, Məmməd Abbasov psixologiyadan dərs deyirdilər. Məhz onların köməyilə 1937-ci ildə İrəvan Pedaqoji İnstitutunda Azərbaycan şöbəsinin açılması bu sahədə müəyyən irəliləyişin yaranmasına səbəb olmuşdu. Bir sözlə, birinci dərəcəli məktəblərdən tutmuş, texnikumlar, ikiillik qiyabi pedaqoji institutlar və pedaqoji institutun Azərbaycan bölməsinədək azərbaycanlı gənclər səylə öz təhsillərinə davam edirdilər. İrəvanda və eləcə də bütün "Ermənistanda" azərbaycanlıların savadlanmasına ciddi çətinlik törədən əsas iki amil var idi. Birinci amil ondan ibarət idi ki, min ildən artıq bir dövrdə azərbaycanlılar ərəb əlifbası əsasında təhsil almışdılar. Yeni təhsil sistemi isə bunu qəbul etmirdi. Hər şeyi yenidən başlamaq lazım gəlirdi. İkinci amil o idi ki, erməni şovinist dairələri yerlərdə buna mane olurdular.

1935-ci ildə Qərbi Azərbaycanda sovet hakimiyyətinin yubileyi günlərində belə azərbaycanlıların təhsil alması üçün hələ də normal şərait yaradılmamışdı. Məktəblilərin işini qaydaya salmaq üçün ali təhsillilərə ciddi ehtiyac yenə də qalırdı. Bütün çətinliklərə baxmayaraq, İrəvanda yaşayan Cahangir Ələkbərbəyov, Bala Əfəndiyev, Mehdi Kazımov, Miryusif Mirbabayev, Abbas Fərəcov, Sadıq Fərəcov, Rza Vəlibəyov, Rza Şeyxzadə, Əkbər Rzayev, Əsgər Əsgərzadə, Rəhim Allahverdiyev, Cəfər Vəlibəyov, Bəhlul Yusifov, Ələşrəf Bayramov, Həbib Məmmədzadə, Əli Yüzbaşıyev, Zaman Vəliyev, Bülbül Kazımova, Tacirə Bağırova, Fatma Qədimova, Həqiqə Abbasova və onlarla başqa azərbaycanlı ziyalı İrəvanda elmin, maarifin, mədəniyyətin inkişafında yorulmadan, ləyaqətlə çalışırdılar. Bu millətsevər ziyalılar xalqın savadlanması üçün dərs deməkdən əlavə, elmin, maarifin əhəmiyyəti haqqında təbliğat aparır, məruzələr edir, məqalələr, proqram, dərs vəsaiti və dərsliklər yazırdılar.



*İrəvan Dövlət Pedaqoji İnstitutunun binası*

Lakin azərbaycanlıların kütləvi deportasiyası yaxınlaşırdı. SSRİ Nazirlər Sovetinin Azərbaycan xalqına qarşı tarixi cinayət aktı olan 1947-ci il 23 dekabr və 1948-ci il 10 mart tarixli qərarlarından sonra köçürülməsi vacib olan obyektlərdən biri kimi siyahıda İrəvan Azərbaycanlı Pedaqoji Texnikumu ilə yanaşı, İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan bölməsi də salındı. Köçürmə zamanı Azərbaycanın gələcək alimləri professor Zərifə Budaqova, professor Bağır Bağırov, uzun müddət "Azərbaycan məktəbi" jurnalının baş redaktoru işləmiş, əməkdar müəllim Zəhra Əliyeva və başqaları da öz təhsillərini Azərbaycan Dövlət Pedaqoji İnstitutunda davam etdirməli olmuşdular.

1954-cü ildə İrəvan Dövlət Pedaqoji İnstitutunun nəzdində Azərbaycan şöbəsi yenidən bərpa edildi. İki fakültəyə - Azərbaycan dili və ədəbiyyatı, fizika-riyaziyyat fakültələrinə 25 nəfər planlasdırılmışdı. Uzun müddət bunu gözləyən azərbaycanlı gənclərin sevincinin həddi-hüdudu yox idi. İrəvanın çox hörmətli ziyalıları bunu rəğbətlə qarşıladılar. İrəvan ziyalıları instituta üz tutdular. İrəvandakı azərbaycanlı ziyalıların instituta müəllim kimi cəlb edilməsi ilk addım oldu. Ermənistanda nəşr olunan "Qızıl şəfəq" qəzetinin, həmçinin "Sovet Ermənistanı" qəzetinin baş redaktoru olmuş, bir neçə çağırış Ermənistan Ali Sovetinin deputatı olmuş Rza Vəlibəyov da (1903-1974) bu işə həvəslə qoşuldu və o, İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan bölməsinin ilk müəllimlərindən biri olub və uzun müddət burada siyasi iqtisad fənnini tədris etmişdi. Eləcə də Azərbaycan pedaqoji ictimaiyyətinə yaxşı tanış olan Ermənistan Ali Soveti sədrinin müavini, "Sovet Ermənistanı" qəzetinin baş redaktoru olmuş Məhərrəm Bayramov xarici ədəbiyyatdan dərs deyirdi. Çox təəssüf ki, onun da həyatı faciə ilə nəticələndi. Tanınmış rəssam, 500-dən çox əsərin müəllifi Cabbar Quliyev də Azərbaycan şöbəsində dərs aparırdı. "Sovet Ermənistanı" qəzetinin baş redaktorunun müavini Sabir Əsədov isə fəlsəfə fənnini tədris etmişdi. Azərbaycan bölməsində bunlardan əlavə, filologiya elmləri doktoru Əkbər İrəvanlı, Əli Dalqılıçov, Adil Süleymanov, Fərrux Rzayev, Mikayıl Heydərov, Lətif Hüseynzadə, Məhərrəm Hüseynov, görkəmli ictimai-siyasi xadim Hidayət Orucov, Arzuman Qəmbərov kimi alimlər də çalışmışdılar.

Təxminən on il sonra, yəni 1961-ci ildə İrəvan Dövlət Pedaqoji İnstitutunun tarix-filologiya fakültəsinə qəbul dayandırıldı, yalnız ibtidai sinif müəllimi hazırlayan 25 nəfərlik qrup saxlandı. Buraya yenə də Bakıdan müəllimlər dəvət olunurdu. Azərbaycan EA-nın müxbir üzvü Maqsud Cavadov, Azərbaycan alimlərindən: Zeynal Tağızadə, Azər Hüseynov, Həmid Əliyev, Elməddin Əlibəyzadə, Mehdi Erivanski kimi alimlər tez-tez İrəvana ezam olunur, bir müddət orada qalır, ixtisasları üzrə dərs aparırdılar. Hər dəfə onların gəlişi bu instituta yeni ab-hava gətirirdi.

Bir faktı qeyd etmək yerinə düşər ki, Azərbaycan bölməsinə rəhbərlik erməni bölməsinin dekanlarına tapşırılmışdı. Azərbaycan bölməsini illər boyu "yamaq" kimi sıxışdırırdılar. Tələbələr hər bir adi məsələ üçün yalnız milliyyətcə erməni olan dekana müraciət etməli idilər. Azərbaycan bölməsi müəllimlərinin təşkilati işlərə qarışması yalnız onların vasitəsilə mümkün olurdu. 1988-ci ildə Qərbi Azərbaycandan soydaşlarımızın kütləvi şəkildə köçürülməsi İrəvan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinin də bağlanması ilə sonuclandı.

Əminik ki, gec-tez Qərbi Azərbaycanda təhsil tariximizə aid zəngin ənənələr yenidən bərpa olunacaq, böyük elm, təhsil mərkəzinə çevriləcək Azərbaycan dilli müstəqil ali təhsil ocağı yaranıb fəaliyyət göstərəcəkdir.

# QİÇS-ə qarşı mübarizədə dönüş nöqtəsi

## Elm irəliləyir, dünya isə maliyyə sınağıyla üzləşir

HİV infeksiyasının müalicəsində tarixi nailiyyətlər qazanılsa da, profilaktikaya çıxış, beynəlxalq maliyyələşdirmə və ayrı-seçkiliklə mübarizə 2030-cu il hədəfinin taleyini müəyyənləşdirə bilər. Dekabrın 1-i dünyada QİÇS-lə Mübarizə Günü kimi qeyd olunur. 1988-ci ildən keçirilən bu beynəlxalq gün yalnız xəstəlik barədə məlumatlandırma kampaniyası deyil, səhiyyə sistemlərinin imkanlarını, elmi nailiyyətlərin hamı üçün əlçatanlığını, beynəlxalq əməkdaşlığın səmərəliliyini və insan hüquqlarına münasibəti qiymətləndirmək üçün mühüm fürsətdir. 2026-cı ildə bu məsələ xüsusilə aktualdır: bir tərəfdən HİV infeksiyasının müalicəsi və qarşısının alınması sahəsində elm görünməmiş imkanlar yaradır, digər tərəfdən maliyyə çatışmazlığı və xidmətlərə qeyri-bərabər çıxış onilliklər ərzində əldə olunmuş irəliləyişləri təhlükə altında qoyur.

HİV və QİÇS anlayışlarını fərqləndirmək vacibdir. HİV insanın immun sisteminə hücum edən virusdur. QİÇS isə HİV infeksiyasının müalicə olunmadığı və immun sisteminin ciddi zəiflədiyi hallarda yarana bilən son mərhələdir. Müasir antiretrovirus müalicəsi virusun çoxalmasını nəzarətdə saxlamağa, immun sistemini qorumağa və insanların uzun, sağlam həyat yaşamasına imkan verir. Müalicə nəticəsində virus yükü davamlı olaraq aşkarlanmayan səviyyəyə düşəndə HİV cinsi yolla ötürülmür. Bu elmi nəticə həm fərdi sağlamlıq, həm də ictimai səhiyyə baxımından fundamental əhəmiyyət daşıyır. Lakin bu günün reallığını anlamaq üçün epidemiyanın tarixinə qayıtmaq lazımdır.

1981-ci ildə ABŞ-da əvvəllər sağlam hesab edilən insanlarda qeyri-adi immun çatışmazlığı halları barədə məlumatlar yayıldı. Sonrakı illərdə virusun müəyyənləşdirilməsi, diaqnostika üsullarının inkişafı və müalicə preparatlarının yaradılması uzun elmi mübarizənin başlanğıcını qoydu. 1980-ci illərdə HİV diaqnozu çox vaxt ölüm hökmü kimi qəbul edilirdi. Xəstəlik barədə biliklərin məhdudluğu, qorxu və stiqma infeksiyaya yoluxmuş insanların cəmiyyətdən təcrid olunmasına gətirib çıxarırdı. 1990-cı illərin ortalarında bir neçə antiretrovirus preparatının kombinasiyasına əsaslanan müalicənin tətbiqi vəziyyəti dəyişdirdi. HİV artıq yalnız qısa müddətdə ölümə səbəb olan xəstəlik kimi yox, müalicə və davamlı tibbi nəzarət tələb edən xroniki infeksiya kimi idarə oluna bilən vəziyyətə gətirildi. Bununla belə, yeni müalicə üsullarının mövcudluğu onların bütün dünyada bərabər əlçatan olması demək deyildi. Preparatların qiyməti, laboratoriya imkanları, səhiyyə infrastrukturu və maliyyə resursları ölkələr arasında böyük fərqlər yaratdı.

2000-ci illərdə beynəlxalq əməkdaşlıq bu fərqləri azaltmağa yönəldi. 2002-ci ildə QİÇS, vərəm və malyariya ilə mübarizə üçün Qlobal Fond yaradıldı. 2003-cü ildə ABŞ-ın Prezidentin QİÇS-lə Mübarizə üzrə Fövqəladə Planı (PEPFAR) fəaliyyətə başladı. Bu təşəbbüslər milyonlarla insanın diaqnostika, profilaktika və müalicə xidmətlərinə çıxışının genişləndirilməsində mühüm rol oynadı. HİV-lə mübarizə tədricən ayrı-ayrı dövlətlərin səhiyyə məsələsi olmaqdan çıxaraq qlobal inkişaf, beynəlxalq maliyyə və insan hüquqları gündəliyinin tərkib hissəsinə çevrildi. Ancaq epidemiyanın sona çatdığını söyləmək hələ tezdir. UNAIDS-in 2026-cı ilin iyul ayının 27-də dərc etdiyi məlumatlara əsasən, 2025-ci ildə dünyada təxminən 41 milyon insan HİV-lə yaşayıb. Həmin il 1,2 milyon yeni yoluxma qeydə alınıb, QİÇS-lə əlaqəli xəstəliklər nəticəsində təxminən 570 min insan həyatını itirib. Təqribən 32,1 milyon insan isə antiretrovirus müalicəsi alıb. Bu rəqəmlər bir tərəfdən müalicənin milyonlarla insan üçün əlçatan olduğunu, digər tərəfdən epidemiyanın hələ də çox böyük ictimai səhiyyə problemi olaraq qaldığını göstərir.

Müsbət tendensiyalar da var. UNAIDS-in qiymətləndirməsinə görə, yeni HİV yoluxmaları 1994-cü ildəki zirvə səviyyəsi ilə müqayisədə 2025-ci ildə 65 faiz azalıb. QİÇS-lə əlaqəli ölüm halları isə 2004-cü ildəki zirvə ilə müqayisədə 73 faiz aşağı düşüb. Bu dəyişikliklər tibbin, profilaktikanın və beynəlxalq proqramların real nəticələr verdiyini sübut edir. Lakin ümumi irəliləyiş ayrı-ayrı regionlarda vəziyyətin yaxşılaşması demək deyil. Bəzi ölkələrdə yoluxmalar artmaqdadır, uşaqların müalicəyə çıxışı isə böyüklərlə müqayisədə yenə də xeyli azdır. Dünya səhiyyəsinin qarşısında indi iki paralel vəzifə dayanır: mövcud xəstələrin müalicəsini davam etdirmək və yeni yoluxmaların qarşısını almaq.

Birinci istiqamətdə fasilə virusun nəzarətdən çıxması, xəstələrin sağlamlığının pisləşməsi və müalicəyə davamlılıq riskinin artması ilə nəticələnə bilər. İkinci istiqamətdə maliyyə çatışmazlığı profilaktika proqramlarının zəifləməsinə, testlərə çıxışın azalmasına və infeksiyanın vaxtında aşkarlanmasının çətinləşməsinə səbəb olar. Məhz buna görə beynəlxalq maliyyələşdirmə məsələsi 2026-cı ilin əsas müzakirə mövzularından birinə çevrilib.

UNAIDS-in 2025-ci il üzrə hesabatında aşağı və orta gəlirli ölkələrdə HİV-lə mübarizə üçün mövcud beynəlxalq resursların ciddi təzyiq altında olduğu bildirilirdi. Təşkilatın 2026-cı ilin iyulunda yenilənmiş məlumatına əsasən, 2025-ci ildə HİV-lə yaşayan təxminən 9 milyon insan müalicə almayıb. Beynəlxalq maliyyənin azalması xüsusilə donor dəstəyindən asılı olan profilaktika və icma əsaslı xidmətlər üçün əlavə risk yaradıb. Burada səhiyyənin iqtisadi tərəfi ön plana çıxır. Profilaktika və erkən diaqnostikaya ayrılan vəsait yalnız cari xərclər kimi qiymətləndirilməməlidir. Yeni yoluxmaların qarşısının alınması gələcəkdə daha böyük müalicə xərclərinin və insan itkilərinin azalmasına kömək edir. Əksinə, proqramların vaxtından əvvəl dayandırılması sonradan daha yüksək maliyyə yükü yarada bilər. Buna görə dövlətlərin səhiyyə büdcələrində davamlı maliyyələşdirmə, beynəlxalq donorların öhdəlikləri və proqramların nəticələrinə əsaslanan qiymətləndirmə bir-birini tamamlamalıdır. Bununla belə, beynəlxalq yardımı qeyri-müəyyən müddətə yeganə maliyyə mənbəyi kimi saxlamaq da dayanıqlı model deyil. HİV-lə mübarizə proqramlarının uzunmüddətli uğuru milli səhiyyə sistemlərinin gücləndirilməsini, yerli büdcələrin mərhələli artırılmasını, dərman təchizatının etibarlılığını və laboratoriya imkanlarının inkişafını tələb edir. Beynəlxalq maliyyə keçid dövründə vacib rol oynaya bilər, lakin dövlətlərin öz əhalisinin sağlamlığını qorumaq üçün institusional imkanlar yaratması əsas şərt olaraq qalır.


Elmi innovasiyalar isə yeni ümidlər yaradır. Uzunmüddətli təsir göstərən inyeksiya preparatları, profilaktik dərmanlar, daha əlçatan testlər və yeni müalicə yanaşmaları HİV-dən qorunmaq imkanlarını genişləndirir. UNAIDS 2026-cı ilin iyulunda profilaktika sahəsində yeni nəsil preparatların böyük potensialını vurğulamışdı. Bununla belə, elmi kəşfin mövcudluğuyla onun dünya əhalisi üçün əlçatan olması arasında fərq qalır. Yeni dərmanlar bahalı, tibbi infrastruktur isə zəif olanda innovasiyalar ən çox ehtiyac duyan insanlara gec çata bilər. Mübarizənin digər mühüm istiqaməti ayrı-seçkiliyin aradan qaldırılmasıdır. HİV-lə yaşayan insanlara qarşı damğalama və diskriminasiya onların testdən keçməkdən, tibbi yardım almaqdan və statuslarını həkimlə müzakirə etməkdən çəkinməsinə səbəb ola bilər. Bu isə yalnız fərdin hüquqlarına yox, bütövlükdə epidemioloji nəzarətə mənfi təsir göstərir. İnsanların səhiyyə xidmətlərinə təhlükəsiz və məxfi şəkildə müraciət edə bilməsi ictimai sağlamlığın əsas şərtlərindəndir.

İnsan hüquqlarına əsaslanan yanaşma burada praktik əhəmiyyət daşıyır. Məxfilik, məlumatlı razılıq, ayrı-seçkiliyin qadağan edilməsi və tibbi xidmətlərə bərabər çıxış HİV-lə mübarizənin ayrılmaz hissəsidir. İctimai səhiyyə tədbirləri insanları qorxu və cəza ilə yox, etibarlı məlumat, tibbi yardım və profilaktikaya çıxış vasitəsilə müdafiə edəndə daha səmərəli olur. Bu yanaşma həm də insanları öz sağlamlıqları barədə vaxtında qərar verməyə təşviq edir. 2026-cı ilin reallığında informasiya mühiti də mühüm rol oynayır. HİV barədə yanlış məlumatların yayılması, köhnəlmiş təsəvvürlərin qorunması və xəstəliyin müəyyən sosial qruplarla əlaqələndirilməsi elmi nailiyyətlərin ictimaiyyət tərəfindən düzgün anlaşılmasına mane ola bilər. Buna görə media, təhsil müəssisələri və səhiyyə qurumları məlumatları sadə, elmi cəhətdən dəqiq və damğalama yaratmayan dildə təqdim etməlidir. HİV-in ötürülmə yolları, müasir müalicənin imkanları və profilaktika üsulları barədə düzgün bilik qorxunu azaltmağa və səhiyyə xidmətlərinə inamı gücləndirməyə köməkdir.

Azərbaycan üçün də bu gündəliyin əhəmiyyəti var. Milli səhiyyə sistemində erkən diaqnostika, müalicənin davamlılığı, məxfilik, maarifləndirmə və risk qruplarının xidmətlərə çıxışı ardıcıl diqqət tələb edən istiqamətlərdir. Bu sahədə real nəticələri qiymətləndirmək üçün ümumi şüarlar yetmir: yeni yoluxmaların dinamikası, testdən keçənlərin sayı, müalicəyə çıxış, müalicənin davamlılığı və ayrı-seçkiliklə bağlı müraciətlər kimi göstəricilər müntəzəm və şəffaf şəkildə təhlil olunmalıdır. Ölkə üzrə ən son rəsmi epidemioloji məlumatlar ayrıca yoxlanmadan konkret rəqəmlər səsləndirmək düzgün olmazdı.

Dünya 2030-cu ilə qədər QİÇS-i ictimai səhiyyə təhlükəsi kimi aradan qaldırmaq məqsədini qarşıya qoyub. Bu məqsəd HİV-in həmin tarixədək tam yox olacağı anlamına gəlmir. Söhbət yeni yoluxmaların və xəstəliklə əlaqəli ölüm hallarının kəskin azaldılmasından, müalicəyə çıxışın genişləndirilməsindən və epidemiyanın ictimai sağlamlığa yaratdığı təhlükənin idarəolunan səviyyəyə çatdırılmasından gedir. UNAIDS xəbərdarlıq edir ki, maliyyə çatışmazlığı və profilaktika xidmətlərinin zəifləməsi bu hədəfə çatmağı çətinləşdirə bilər.

1 dekabrın mesajı yalnız xəstəliyin mövcudluğunu xatırlatmaq deyil. Bu gün dövlətlərə, beynəlxalq təşkilatlara və cəmiyyətlərə verilən sual budur: elm milyonlarla insanın həyatını qurtaracaq imkanlar yaradıbsa, həmin imkanlardan niyə hər kəs eyni dərəcədə faydalana bilmir? HİV-lə mübarizədə uğur yalnız yeni preparatların yaradılması və ya statistik göstəricilərin azalması ilə ölçülməməlidir. Uğur həm də insanın vaxtında testdən keçə bilməsi, müalicəni fasiləsiz alması, tibbi sirrinin qorunması və xəstəliyinə görə ayrı-seçkiliyə məruz qalmamasıdır. Beynəlxalq əməkdaşlıq zəifləyəndə, maliyyə proqramları dayandırılanda və səhiyyə xidmətlərinə çıxış daralanda elmi tərəqqinin təsiri də məhdudlaşır. QİÇS-ə qarşı mübarizənin gələcəyini artıq təkcə laboratoriyalarda əldə olunan kəşflər müəyyənləşdirməyəcək. Həlledici amillər elmi nailiyyətlərin əlçatanlığı, dövlətlərin siyasi iradəsi, davamlı maliyyələşdirmə və insan hüquqlarına hörmət olacaq. 2030-cu il hədəfinə çatmaq üçün dünya malik olduğu tibbi imkanları real, davamlı və bərabər müdafiə sisteminə çevirməlidir.



*Kəramət Qənbərov,*
*Beynəlxalq hüquq üzrə ekspert*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“PressİnformMMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






# Səbrinin azaldığı, emosiyalarının önə keçdiyi nəsil...

## Gənclik enerjisi niyə aqressiyaya çevrilir?

İnsan bəzən ən böyük mübahisəni qarşısındakı ilə deyil, öz daxilində yaşayır. Deyə bilmədiyi sözlər, ifadə edə bilmədiyi narazılıqlar, qarşılaşdığı uğursuzluqlar və topladığı emosional gərginlik zaman keçdikcə davranışlarına təsir göstərir. Bu gərginlik bəzi hallarda səbirsizlik, kobud münasibət, dözümsüzlük və aqressiya şəklində üzə çıxır. Xüsusilə, gənclər arasında müşahidə olunan belə davranışlar düşündürücü mənzərə yaradır.

Əslində, gənclik insanın özünü təsdiq etməyə, müstəqil qərarlar verməyə, ətrafındakı dünyada yerini müəyyənləşdirməyə çalışdığı mühüm həyat mərhələsidir. Bu dövrdə emosiyaların daha kəskin yaşanması, haqsızlığa qarşı həssaslıq, öz fikrini qəbul etdirmək istəyi təbii haldır. Lakin etirazla aqressiya, özünümüdafiə ilə zorakı davranış arasındakı sərhəd pozulduqda vəziyyət dəyişir. Bəs gəncləri bu həddə gətirən nədir? Niyə bəzi gənclər narazılıqlarını sakit söhbətlə deyil, qəzəb, aqressiya və qarşıdurma ilə ifadə etməyə üstünlük verirlər?

## Aqressiyanın arxasında hansı səbəblər dayanır?

Mövzu barədə fikirlərini “Yeni Azərbaycan”la bölüşən psixoloq Aytən Ələkbərova bildirib ki, gənclərdə aqressiv davranışın yaranmasını yalnız bir səbəblə izah etmək düzgün olmazdı: “Bu, çox zaman psixoloji, sosial, ailəvi və iqtisadi amillərin bir-birinə təsiri nəticəsində formalaşır. İnsanın böyüdüyü mühit, qarşılaşdığı münasibətlər, yaşadığı uğursuzluqlar və emosional ehtiyacları onun davranışlarına birbaşa təsir göstərə bilər.

Aqressiyanın əsas səbəblərindən biri emosiyaları idarə etmək bacarığının kifayət qədər inkişaf etməməsidir. Bəzi gənclər qəzəbləndikləri zaman hisslərini necə ifadə etməli olduqlarını bilmirlər. Onlar üçün narazılıq bildirməyin, mübahisə zamanı qarşı tərəfi dinləməyin və kompromisə gəlməyin əvəzinə, səsini yüksəltmək daha asan görünür. Nəticədə, kiçik anlaşılmazlıqlar belə böyük münaqişələrə çevrilir.

Digər mühüm amil isə özünəinamın zəifliyi və daxili narahatlıqlardır. Bəzən aqressiv görünən davranışın arxasında əslində özünü müdafiə etmək, zəif görünməmək və başqalarının hörmətini qazanmaq istəyi dayanır. Belə gənclər tənqidi şəxsi təhqir kimi qəbul edə, adi fikir ayrılığını özlərinə qarşı münasibət kimi qiymətləndirə bilirlər”.

## Virtual mübahisələr real həyata keçir

Psixoloq qeyd edib ki, müasir gənclərin gündəlik həyatında sosial şəbəkələrin xüsusi yeri var: “Burada insanlar fikirlərini bölüşür, müzakirələrə qoşulur, müxtəlif hadisələrə münasibət bildirirlər. Lakin virtual ünsiyyətin yaratdığı sərbəstlik bəzən məsuliyyətsiz davranışlara da şərait yaradır. Şərhlərdə təhqir, lağ, alçaltma, aqressiv ifadələr və kiberzorakılıq halları xüsusilə narahatedicidir. Ekranın arxasında olmağın yaratdığı məsafə bəzi istifadəçiləri real həyatda deməyə cəsarət etməyəcəkləri sözləri yazmağa sövq edir. Üstəlik, sosial platformalarda qarşıdurma yaradan məzmunların geniş yayılması aqressiv davranışın adi və hətta qəbuledilən görünməsinə səbəb ola bilər.

Digər tərəfdən, sosial şəbəkələrdə nümayiş etdirilən süni uğur, dəbdəbəli həyat tərzi və zahiri mükəmməllik obrazları gənclərdə özünü başqaları ilə müqayisə etmək meylini gücləndirir. Bu müqayisələr bəzən narazılıq, özünü dəyərsiz hiss etmək, paxıllıq və daxili gərginlik yaradır. Həmin hisslər isə müəyyən hallarda ətrafdakılara qarşı aqressiv münasibətdə özünü büruzə verir”.

## Sosial təzyiq və gələcəklə bağlı narahatlıqlar

A.Ələkbərovanın sözlərinə görə, gənclərin davranışlarına təsir edən amillər sırasında sosial və iqtisadi çətinlikləri də xüsusi qeyd etmək lazımdır: “Təhsilini başa vurduqdan sonra iş tapa bilməmək, maddi müstəqillik qazana bilməmək, gələcək planlarının reallaşmaması və cəmiyyətin gözləntilərinə cavab vermək təzyiqi gənclərdə ciddi psixoloji gərginlik yarada bilər. Bəzən gənc özünü yaşıdlarından geri qalmış hesab edir, qarşısına qoyduğu məqsədlərə çata bilmədikdə məyusluq yaşayır. Bu narazılıq düzgün istiqamətləndirilmədikdə ətrafındakı insanlarla münasibətlərə mənfi təsir göstərir.

Burada bir məqamı da unutmaq olmaz: aqressiv davranışı yalnız maddi çətinliklərlə əlaqələndirmək doğru deyil. Sosial təminatı yaxşı olan, təhsil alan və geniş imkanlara malik gənclər arasında da aqressiya müşahidə edilə bilər. Çünki emosional yetkinlik, empatiya və özünənəzarət insanın maddi vəziyyətindən asılı olmayan keyfiyyətlərdir”.

## Zorakılığın adi davranış kimi qəbul edilməsi təhlükəlidir

Mütəxəssis qeyd edib ki, aqressiyanın daha ciddi formalarından biri onun tədricən normallaşmasıdır: “Bəzi mühitlərdə kobud danışmaq, qarşı tərəfi qorxutmaq, mübahisədə üstünlük qazanmaq üçün fiziki gücə əl atmaq zəiflik deyil, güc nümayişi kimi təqdim edilir. Xüsusilə, yeniyetməlik dövründə dost çevrəsinin təsiri güclü olduğundan, gənclər bəzən qrup tərəfindən qəbul edilmək üçün öz davranışlarını dəyişirlər. Belə şəraitdə aqressiv davranış təqlid yolu ilə yayıla bilər. Bir gəncin qarşıdurma zamanı zorakı üsulla istədiyinə nail olduğunu görən digəri də eyni davranışın nəticə verəcəyini düşünə bilər. Halbuki bu yanaşma həm fərdi münasibətləri zədələyir, həm də cəmiyyətdə qarşılıqlı etimadı zəiflədir.

Aqressiyanın nəticələri yalnız mübahisə edən iki insanla məhdudlaşmır. Məktəblərdə zorakılıq, küçə qarşıdurmaları, ailədaxili gərginlik, dostluq münasibətlərinin pozulması və hüquq pozuntuları daha geniş sosial problemlərin yaranmasına səbəb ola bilər”.

## Aqressiyanın qarşısını almaq üçün nə etmək lazımdır?

Psixoloqun fikrincə, problemin həlli üçün ilk növbədə gənclərə yalnız qadağalar qoymaq deyil, onlara düzgün davranış alternativləri öyrətmək vacibdir: “Qəzəbi hiss etmək insan təbiətinin bir hissəsidir. Əsas məsələ həmin hissin hansı formada ifadə olunmasıdır. Ailələrdə uşaqların fikirlərinə diqqətlə yanaşmaq, onları dinləmək, hisslərini ifadə etmələrinə şərait yaratmaq mühüm əhəmiyyət daşıyır. Məktəblərdə isə psixoloji maarifləndirmə, münaqişələrin dinc yolla həlli, empatiya və ünsiyyət bacarıqlarının inkişafına yönəlmiş fəaliyyətlər genişləndirilməlidir.

İdman, yaradıcılıq, könüllülük fəaliyyəti və ictimai layihələr də gənclərin enerjisini müsbət istiqamətə yönəltmək üçün faydalı imkanlardır. Eyni zamanda, aqressiv davranış davamlı xarakter aldıqda və insanın gündəlik münasibətlərinə ciddi zərər vurduqda psixoloq və ya digər müvafiq mütəxəssisə müraciət etmək məqsədəuyğundur”.

***Yeganə BAYRAMOVA***

# UNESCO: Jurnalist qətllərinə görə cəzasızlıq qlobal miqyasda artıb

UNESCO-nun son hesabatına görə, jurnalist qətllərinə görə qlobal cəzasızlıq 10 ildən çox müddətdə ilk dəfə artıb, dronlardan artan istifadə isə münaqişə zonalarında reportyorlar üçün yeni təhlükə mənbəyi yaradır.

BMT-nin məlumatına əsasən, UNESCO-nun Baş direktoru Xalid əl-Ənani bu vəziyyəti şərh edərkən bildirib: “Jurnalistlərin cəbhə xəttindən reportajları onların həyatları bahasına başa gəlir və media nümayəndələrinin qətllərinə görə məsuliyyət daşıyanlar çox vaxt cəzasız qalırlar”.

UNESCO ilk dəfə 2012-ci ildə cəzasız qalan jurnalist qətllərinin nisbətini ölçməyə başlayıb. Bu rəqəm 2024-2025-ci illərdə 86 faizə çatıb ki, bu da əvvəlki ikiillik dövrdən bir faiz çoxdur.

2024-2025-ci illərdə cəmi 189 jurnalist və digər media işçisinin həyatını itirdiyi təsdiqlənib ki, bu da əvvəlki ikiillikdən 20 faiz çoxdur və 2014-2015-ci illərdən bəri ən yüksək rəqəmdir. Münaqişə zonalarında ölənlərin üçdə iki hissəsindən çoxu, yəni 127 nəfər həlak olub ki, bu da ölənlərin ümumi sayının 67 faizini təşkil edir.

Bu rəqəmlər noyabrın 2-də qeyd edilən Beynəlxalq Jurnalistlərə Qarşı Cinayətlərə görə Cəzasızlığa Son Qoyulması Günü münasibətilə hər iki ildən bir dərc olunan Baş direktorun media nümayəndələrinin təhlükəsizliyi haqqında hesabatında öz əksini tapıb.

BMT-nin Baş katibi Antonio Quterreş bu günlə bağlı müraciətində bildirib: “Son bir il ərzində 34 jurnalist qətlə yetirilib. Bu cür qətllərdən hər yeddisindən altısı cəzasız qalır. Münaqişə şəraitində cəzasızlıq nisbəti 100 faizə yaxındır. Bu, qurbanlara və onların yaxınlarına, eləcə də jurnalistlərin məlumatlı və fəal qalmasından asılı olan hamımıza qarşı dəhşətli təhqirdir”.

Hesabatda deyilir ki, 2024-2025-ci illər ərzində dünyanın bütün bölgələrində qətllər qeydə alınıb ki, bu da qlobal fəlakətə səbəb olur. Təsdiqlənmiş halların ən çox sayı ərəb dövlətlərində (97), ardınca Latın Amerikası və Karib dənizi (37), Asiya-Sakit okean (34), Mərkəzi və Şərqi Avropa (14), Afrika (6) və Qərbi Avropa və Şimali Amerikada (1) qeydə alınıb.

UNESCO-nun “narahatedici yeni təhlükə” adlandırdığı amil - jurnalistləri öldürmək üçün dronlardan artan istifadə hesabatda xüsusi qeyd olunub. 2024-2025-ci illər ərzində dron hücumları nəticəsində 50 jurnalist həyatını itirib ki, bu da münaqişə zonalarında öldürülənlərin 40 faizi deməkdir.

Baş direktor əl-Ənani media ofislərinə və müvəqqəti reportaj mərkəzlərinə edilən hücumlar da daxil olmaqla bir neçə jurnalistin tək bir hücumda hədəfə alındığı və öldürüldüyü yeddi hadisəni sənədləşdirib. Məlumata görə, on beş jurnalist mətbuat jiletləri geyinərkən və ya “PRESS” yazılmış nəqliyyat vasitələrində öldürülüb.

O qeyd edib: “Mən BMT Təhlükəsizlik Şurasının 2015-ci ildə yekdilliklə qəbul edilmiş və jurnalistlərin, media işçilərinin münaqişə vəziyyətlərində mülki şəxslər kimi qorunması ilə bağlı 2222 saylı qətnaməsinə hörmətlə yanaşmağa çağırışımı bir daha təkrarlayıram. Bu status BMT-nin “Gələcək Paktı”nda bir daha təsdiqlənib”.



Hesabatda, həmçinin münaqişə olmayan ölkələrdə jurnalist qətllərinə görə cəzasızlığın azalmağa davam etməsi ilə bağlı irəliləyişlər vurğulanıb. Bu göstərici 2012-ci ildəki 94 faizdən 2026-cı ildə 77 faizə və ya ildə bir faiz bəndinə düşüb. Münaqişə olmayan zonalarda jurnalist qətllərinin sayı - 85 nəfər də son 18 ildə ən aşağı göstəricidir.

“Bu, hökumətlərin jurnalist qətllərinin istintaqına, məhkəmə təqibinə və media nümayəndələrinin qorunmasına sərmayə qoyduqda irəliləyişin mümkün olduğunu göstərir”, - deyə UNESCO bildirib.

Təşkilat qeyd edib ki, qadın jurnalistlər həm müharibə zonalarında, həm də internetdə xüsusi risklərlə üzləşməyə davam edirlər. 2024-2025-ci illərdə öldürülən 14 qadından 13-ü silahlı münaqişənin yaşandığı ölkələrdə olub. Bundan əlavə, BMT Qadınlar Təşkilatı və Beynəlxalq Jurnalistlər Mərkəzi tərəfindən 2025-ci ildə aparılan araşdırma qadın jurnalistlərin 75 faizinin onlayn və ya oflayn zorakılıq və təqiblərə məruz qaldığını müəyyən edib.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4285**
**Sifariş: 1477**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova